

# 200 evdən gələn işıq

6



15

**Rusiya kinoprodüseri:**
Azərbaycanda çəkilə biləcək kino layihələrimiz var


Səs

№ 077 (6518) 5 may 2022-ci il. Qiyməti 60 qəpik


# "Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik!"



2

# Dəmir yumruq yenidən düşmənin başına enmək üzrədir!



11

Ermənistandakı revanşçı qüvvələr ölkəni və kütləni ölümün ağzına doğru sürükləyirlər



3

## Qayğıkeş Ana və LİDER Xanım

# Ronaldo: "Hələ işim bitməyib"



16

"Mançester Yunayted"in futbolçusu Kriştiano Ronaldo klubdan ayrılmaq fikrində deyil. Qol.az xəbər verir ki, portuqaliyalı hücumçu İngiltərə Premyer Liqasının 35-ci turunda "Brentford"a qalib gəldikləri matçdan (3:0) sonra televiziya kameralar...



## "Azərbaycanda təhsil hər zaman əsas faktorlardan biri olub"

7

"Azərbaycanda təhsil hər zaman önəmli məsələ olub. Valideynlər övladına yaxşı təhsil verməsi üçün əlindən gələni edir. Bu gün təhsil uğurlarımızın bünövrəsi...

## İkinci Dünya müharibəsi iştirakçılarına 1500 manat birdəfəlik yardım ödənilib



13

## Avtomobillərdə pərdə və plyonkadan istifadə ləğv edilib?



## Bakıda tələbənin intihar etməsinin səbəbi açıqlandı

16



# “Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik!”

*Prezident İlham Əliyev Vahid Hacıyevi Prezidentin Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Vahid Hacıyevi Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. Dövlətimizin başçısı qəbulda çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, Zəngilan rayonu azad edilmiş digər rayonlarımız kimi böyük dağıntılara məruz qalıb. Ermənistan işğalçı qüvvələri Zəngilan rayonunu demək olar ki, yerlə-yeksan ediblər: ”Zəngilan şəhərində cəmi 1-2 salamat bina qalıb, o binalardan da Ermənistan işğalçıları - hərbçilər istifadə edirdilər. Bir dənə də salamat kənd qalmayıb, Zəngilanın bütün kəndləri yerlə-yeksan edilib. Bu, bir daha erməni vandalizminin eybəcər sifətini bütün dünyaya göstərir, bir də onu göstərir ki, Azərbaycan xalqı və Azərbaycan Ordusu bölgəmizi böyük bəladan - erməni faşizmindən xilas etmişdir.***

Zəngilan rayonunda, eyni zamanda, bütün tarixi-dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb. Biz artıq tarixi-dini abidələrimizin bərpası işinə başlamışıq. Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə Zəngilan şəhər məscidi indi əsaslı şəkildə təmir olunur, faktiki olaraq yenidən qurulur. Çünki bu məsciddən cəmi bir divar qalmışdı. Yəni, Zəngilanda mövcud olan acı mənzərə azad edilmiş bütün başqa torpaqlarda da mövcuddur.

Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik və Zəngilan rayonu bu sahədə birinci rayondur ki, artıq keçmiş məcburi köçkünlər yaxın gələcəkdə oraya qayıdacaqlar. Bildiyiniz kimi, birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirilir. Ağalı kəndi faktiki olaraq yenidən qurulur, böyük və rahat kənd olacaq. Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər. Biz azad edilmiş torpaqları necə görmək istəyirik? Biz insanlara, oraya qayıdacaq insanlara hansı şəraiti yaratmaq istəyirik? Hər kəs görəcək ki, işlərimiz planlı və sistemli şəkildə aparılacaq, bütün amillər nəzərə alınacaq - təhlükəsizlik, rahatlıq, rifah, məşğulluq və gələcək inkişaf.

Eyni zamanda, hazırda Zəngilan rayonunda böyük infrastruktur layihələri icra edilir. Onların arasında Zəngəzur dəhlizinin tərkib hissəsi olan nəqliyyat infrastrukturunu mən qeyd etmək istərdim. Bu il Zəngilan Beynəlxalq Hava Limanı istismara veriləcəkdir. Əminəm ki, bu hava limanının çox böyük funksiyaları olacaqdır. Çünki biz Zəngilanı gələcəkdə beynəlxalq nəqliyyat-logistika mərkəzi kimi görürük. Rayonun yerləşməsi, beynəlxalq bazarlara yaxın olması və digər amillər bunu təmin edəcək. Azad edilmiş torpaqlarda Füzulidən sonra ikinci hava limanının məhz Zəngilanda yaradılması, əlbəttə ki, coğrafi vəziyyəti nəzərdə tutur, buna əsaslanır, eyni zamanda, bizim həm iqtisadi, nəqliyyat, həm də təhlükəsizliklə bağlı məsələlərimizi həll etmək üçün vacib vasitə olacaqdır. Zəngəzur dəhlizinə gəldikdə, artıq bu dəhliz reallıqdır. Zəngilan rayonunun ərazisindən keçən həm dəmir yolu, həm avtomobil yolu nəinki Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, eyni zamanda, beynəlxalq yükdaşımaları üçün yeni bir yol olacaq, beynəlxalq bir yol olacaq. Ona görə və eyni zamanda, keçmiş məcburi köçkünlərin rahatlığı üçün biz dörd və altı zolaqdan ibarət olan avtomobil yolunu sürətlə inşa edirik. Bu yolun hissə-hissə istifadəyə verilməsi gələn ildən başlayacaq.

Azərbaycan vətəndaşları yaxşı bilirlər ki, işğal dövründə Ermənistan rəhbərliyi Ermənistandan Cəbrayıla yol çəkmək istəyirdi. Həmin bu yol təbii ki, Zəngilandan keçməli idi. Onların bu ümidləri və ümumiyyətlə, bütün ümidləri gözlərində qaldı. Bildiyimə görə, birzolaqlı kənd tipli bir yol çəkmək fikrində idilər. Biz isə Horadizdən Zəngilana dörd və altızolaqlı magistral avtomobil yolu çəkirik. Eyni zamanda, mövcud yol, yəni, sovet vaxtından qalan yol, hansı ki, indi biz ondan istifadə edirik, o da əsaslı şəkildə təmir olunacaq. Yəni, yeni çəkilən yol tam yeni və daha əlverişli marşrutla keçir və yol boyunca yol infrastrukturu həm məsafə baxımından daha əlverişli olacaq, həm də əlbəttə, vətəndaşlar bu yolla rahat gedib-gələcəklər və beynəlxalq yükdaşıma məsələləri öz həllini tapacaqdır.

Biz həm Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə Zəngəzur dəhlizi vasitəsilə birləşdirəcəyik, tam yeni nəqliyyat dəhlizi açılacaq. Nəzərə alsaq ki, son vaxtlar Azərbaycana Xəzər dənizinin Şərq hissəsindən çoxlu müraciətlər daxil olub. Azərbaycan ərazisindən yük göndərmək istəyənlərin həm sayı, həm də yüklərin həcmi artır, əlbəttə, Zəngəzur dəhlizi bizim üçün və qonşu dövlətlər üçün əlavə imkanlar yaradacaq.”

Dövlətimizin başçısı daha sonra qeyd edib ki, azad edilmiş hər bir rayonda kəndlərin bərpası ilə bağlı işlərə artıq start verilib. Prezident İlham Əliyev diqqətə çatdırıb ki, bu kəndlər də planlı şəkildə bərpa ediləcək: ”Biz bu prosesi də mərhələlərə böldük. Birinci mərhələdə hansı kəndlər qurulacaq, ikinci mərhələdə və sair. Əlbəttə, kəndlərin qurulması da planlı şəkildə aparılmalıdır. Yəni, kortəbii yox, sistemli şəkildə. Ona görə hər bir yeni yaradılacaq, bərpa ediləcək kəndin Baş planı olmalıdır və baş planlar hazırda hazırlanır. Necə ki, şəhərlərin baş planları, o cümlədən Zəngilan şəhərinin, eləcə də kəndlərin baş planları hazırlanacaq. Azad edilmiş bütün torpaqlarda görüləcək bütün işlər ancaq baş planlar əsasında olmalıdır. Baş plandan kənar bir dənə də daş daş üstə qoyulmamalıdır, bir dənə də qanunsuz tikili olmamalıdır. Yəni, biz nümunəvi bir yaşayış məkanını yaradırıq. Həm Azərbaycan üçün, həm dünya üçün nümunəvi bir təcrübə sahibi olacağıq. Ona görə hər şey şəffaf, tenderlər və baş planlar əsasında yaradılacaqdır. Ona görə azad edilmiş bütün rayonlarda, o cümlədən Zəngilan rayonunda da bu işlərə artıq hazırlıq gedir.

Ermənistan işğal dövründə işğal altında olan torpaqların ekologiyasına da böyük zərər vurmuşdur və mən həmin rəqəmləri səsləndirmişdim. Əlli-altmış min hektar meşə ilə örtülü sahə tamamilə məhv edilmişdir. Biz bunu peyk vasitəsilə müşahidə edirdik. Xüsusilə Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonlarında meşələrin kütləvi surətdə qırılması prosesi gedirdi. Yəni, bu, faktiki olaraq vəhşilik və talançılıqdır. Ermənistanın işğal dövründə çirkin əməllərini təsvir etmək üçün, hesab edirəm ki, bu iki ifadə ön planda olmalıdır - vəhşilik və talançılıq. Zəngilanda da bu mənfur işlər görülmüşdür və bunun nəticəsində təbiətə çox böyük ziyan vurulmuşdur.

Hər kəs yaxşı bilir ki, Avropada ərazisinə görə ikinci ən böyük çinar meşəsi Zəngilan rayonunda olub - Bəsitçay təbiət qoruğu. O Bəsitçay təbiət qoruğunun böyük hissəsi məhv edilib və mən Zəngilanda olarkən o kəsilmiş ağacların kötüklərini görmüşəm və eyni zamanda, yandırılmış ağacları da görmüşəm. Eyni çirkin əməlləri onlar Kəlbəcər və Laçın rayonlarında müharibədən dərhal sonra etmişdilər. Onlara möhlət verilmişdi o ərazilərdən çıxmaq üçün, iyirmi gün vaxt verilmişdi. O günləri onlar yenə də bəd əməllər üçün istifadə etmişdilər. Onlara məxsus olmayan, azərbaycanlıların tikdirdikləri və onların qanunsuz yaşadıqları evləri məhv etmiş, yandırmış, ağacları kəsmiş, yandırmışlar. Bütün əşyaları ya məhv etmiş, ya da ki, söküb aparmışlar. Bu biabırçı kadrlar xarici kanallar vasitəsilə də görüntüləndi və hər kəs görə bildi ki, onlar hansı əşyaları özləri üçün əziz bilib tələm-tələsik çıxarmağa nail olmuşdular. Amma, eyni zamanda, ağacları kəsib yandırmışdılar.

Biz indi bütün hüquqi prosedurlara start vermişik. Mən bu haqda Azərbaycan ictimaiyyətini məlumatlandırmışdım. Bir cinayət də cavabsız qalmayacaq. Birincisi, biz dəymiş bütün ziyanı hesablayırıq, bütün şəhər və kəndlərimizin pasportlaşdırılması prosesi gedir. Hər bir binanın, yaxud da ki, o binadan qalan dağıntıların video-foto çəkilişi aparılır. Bu, sübutdur və biz beynəlxalq məhkəmələrə də müraciət etmək əzmindəyik, hazırlıq işləri gedir. Həmçinin Vejnəli qızıl yatağının xarici vətəndaşlar tərəfindən, o cümlədən erməni əsilli xarici vətəndaşlar tərəfindən qanunsuz istismar edilməsi onlara baha başa gələcək. Biz o adamların adlarını bilirik. Biz onları dünya qarşısında ifşa edəcəyik və bizə təzminat ödəyəcəklər. Vurulmuş ziyanın təzminatını mütləq ödəyəcəklər.

Ermənistan rəhbərliyinə gəldikdə, onların hər bir addımı, hər bir hərəkəti biabırçılıq olub. Amma beynəlxalq auditlə işləyən beynəlxalq şirkət bu çirkin əməllərə əl atırsa, burada həmin o şirkətin yerləşdiyi ölkələrin hüquq-mühafizə orqanlarının işi olmalıdır. Biz bir neçə dəfə o şirkətin adını çəkmişik, bu gün də çəkə bilərəm: ”Cronimet” şirkəti. Nə üçün bu günə qədər reaksiya verilmir? Nə üçün Almaniyanın hüquq-mühafizə orqanları bu şirkətin əməllərini araşdırmır? Biz axı, rəsmən müraciət etmişik. Həm də həmin ”Cronimet” şirkətinə müraciət etmişik: gəlin, təmizləyin bu ekoloji terrorun fəsadlarını. Cavab yoxdur. Hüquq-mühafizə orqanlarından cavab yoxdur. Axı, biz bilirik ki, Avropada ekologiyaya nə qədər böyük diqqət göstərilir. Biz bilirik ki, havanın yarım dərəcə istiləşməsi indi bütün dünya, Avropa üçün böyük problem kimi qəbul edilir. İqlim dəyişikliyi problemi bu gün dünya gündəliyinin diqqətini cəlb edib. Amma burada açıq-aşkar görünür ki, təmiz qaynaqlardan axan çay sarı rəngə boyanır. Yəni, oradan götürülən nümunələr, o cümlədən işğal dövründə götürülən nümunələr bunu göstərir. Birinci olaraq erməni ekoloqları bu məsələni qaldırmışdılar. Onlar qeyd edirdilər ki, burada təbii fəlakət baş verir. Əlbəttə ki, onlar Azərbaycana, necə deyərlər, xoş münasibət göstərən adamlar deyildilər, onlar hesab edirdilər ki, bu torpaqlar Ermənistanın əlində əbədi olacaq. Ona görə məsələ qaldırmışdılar və əvvəlki rəhbərliyi, kriminal xunta rejimini - Serjik Sarkisyanı və onun qohumlarını ittiham etmişdilər. Onların da əlində sübutlar var. Amma bir addım atıldı? Yox.”

Dövlətimizin başçısı daha sonra qeyd edib ki, qarşıda duran digər vəzifələr, əlbəttə ki, ilk növbədə, keçmiş məcburi köçkünlərin azad edilmiş torpaqlara tezliklə qayıtmaları ilə bağlıdır. Prezident İlham Əliyev diqqətə çatdırıb ki, burada da dövlət nə mümkünsə edir, bütün güclər səfərbər olunub: ”Zəngilan rayonunun turizm imkanları dərindən təhlil edilməlidir, təxirəsalınmaz işlərə biz dərhal başlamalıyıq. Yeni otellər, istirahət zonaları yaradılmalı, kənd turizmi inkişaf etdirilməlidir. Bu, oraya qayıdacaq insanlar üçün də məşğulluq və gəlir mənbəyi olacaq. Yəni, burada dünyada və xüsusilə Avropada mövcud olan ən mütərəqqi prinsiplər tətbiq edilməlidir, bütün sahələrdə.”

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Vahid Rasim oğlu Hacıyev ”Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanı ilə müəyyən edilmiş Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilsin.

***

Prezident İlham Əliyev Vilayət Quliyevin Azərbaycan Respublikasının Bosniya və Herseqovinada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Vilayət Muxtar oğlu Quliyev Azərbaycan Respublikasının Bosniya və Herseqovinada fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

# Qayğıkeş Ana və LİDER Xanım

Əsrlərlə cərəyan edən formalaşma prosesində qadın gücü, qadın əməyi və rəşadəti Azərbaycan qadınlarının keçdiyi şərəfli yolun təcəssümüdür. Tarixən dünyaya səs salan Azərbaycan qadınlarının varlıq olaraq bir simvola çevrilən obrazları Tomris, Nüşabə, Heyran Nisə Bəyim, Sara Xatun, Xurşud Banu Natəvan, Qönçəbəyim, Ağabəyim Ağa Ağabacı və başqaları tariximizdə əmək və fəaliyyətləri ilə yer almış, əməllərin fövqündə aləmi nurlandırmış, yeni naxış salmış, onu nurlandırmışlar. Milli varlığımızın ifadəsi olaraq, əxlaqi-mənəvi sərvətlərimiz və mədəni-tarixi dəyərlərimiz keçmişimizin ən mürəkkəb dövrlərində qorunub-yaşadılmışdır. Keçmişimizin unudulmaz səhifələrindəki möhkəm iradəyə malik görkəmli qadın şəxsiyyətlərimizin yüksək ləyaqətinin, ağbirçək analarımızın müdrikliyinin daşıyıcıları kimi, müasir Azərbaycan xanımları öz dərin zəkaları və tükənməz daxili potensialları ilə bu gün də xalqa və cəmiyyətə fədakarcasına xidmət edirlər. Bütün sahələrdə əməyi olan Azərbaycan xanımı dövlətin inkişafında, dövlətçilik ənənələrinin möhkəmlənməsində müstəsna rola malikdir. Ulu Öndər Heydər Əliyev qadının rolunu və fəaliyyətini çox yüksək qiymətləndirərək belə deyirdi: "Qadın bəşərə yaraşıq, zinət, insanlığa şərəf, şan-şöhrətdir. Qadın ucalıq, ülvilik məbədidir, ismət, qeyrət, qüdrət rəmzidir".

Bu gün Azərbaycan qadınının əzəmətini bütün dünyada tanıdan Azərbaycan Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva fəaliyyəti ilə xeyriyyəçilik və humanist layihələrinə imza ataraq Azərbaycan qadını və Anası, Böyük İnsan, İctimai Xadim kimi olaraq xoş niyyətli əməlləri ilə böyük nüfuza sahibdir. Azərbaycan cəmiyyətinin yaratdığı hüquqi normalardan yararlanan və bu prinsiplər əsasında dünyaya qapı açan Mehriban xanım Əliyeva ictimai-siyasi, mədəni, sosial proseslərdə fədakarlıq nümunəsini göstərir. Sözsüz ki, Onun prinsipiallığı, qətiyyəti yaşadığı mühit - ocaq və ailə ilə bağlıdır. Azərbaycanın Birinci Xanımı ənənələrinin formalaşması, məhz onun doğulub boya-başa çatdığı ocaqdan gələn bir təməldir. Xeyir əməllər sahibi kimi 1995-ci ildə yaradılan Azərbaycan Mədəniyyətinin Dostları Fondu Mehriban xanımın Azərbaycan xalqının dünya mədəniyyətinə inteqrasiya olunması, yeni beynəlxalq əlaqələrin yaradılması baxımından həyata keçirdiyi ideyaları özündə cəmləşdirir. Maarifçilik ideyaları ilə çıxış edən daha geniş bir aspektdə humanizm prinsiplərini gerçəkləşdirməyə çalışan Mehriban xanım Əliyeva Azərbaycanda mövcud olan sosial məsələlərin həlli yönümündə öz bacarıq və iradəsini ortaya qoyaraq, daha geniş şəkildə fəaliyyət göstərdi. Ulu Öndər Heydər Əliyev ideologiyasını davam etdirmək və prinsipləri gerçəkləşdirmək üçün Heydər Əliyev Fondunun yaradılması Onun çoxsaylı layihələrinə imza atdı.



Ardı Səh. 4









Əvvəli Səh. 3

”Yeniləşən Azərbaycana yeni məktəb” Proqramına uyğun olaraq Azərbaycanın bir sıra rayon və kəndlərində yeni məktəb binalarının inşa, təmir və bərpa olunaraq istifadəyə verilməsi bu görülən işlərin davamı olaraq reallaşır. Belə ki, məktəblər müasir avadanlıqlarla təchiz edilərək, dünya standartlarına uyğun qurulur ki, bu da təhsilin keyfiyyətinə müsbət təsirini göstərməkdədir. Çoxşaxəli fəaliyyət və reallaşan əməllər Mehriban Əliyevanın ismini qarşısına ən gözəl məfhumları həkk edib. Düzgün qərar qəbul etmək bacarığı ilə heyrət doğuran Mehriban xanım Əliyeva tariximizə parlaq səhifələr yazıb.



# Qayğıkeş Ana və LİDER Xanım

### “MƏRHƏMƏT BƏZƏN ÇƏTİN VƏ MƏSULİYYƏTLİ QƏRAR QƏBUL ETMƏYİ TƏLƏB EDİR”

Nəciblik, xeyirxahlıq, fədakarlıq, mətinlik, qayğıkeşlik və insanpərvərlik nümunəsinə çevrilən Birinci Xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın ölkəmizin ictimai-siyasi və mədəni həyatında rolu və əməyi danılmazdır. Qeyd edək ki, Milli Məclisin deputatı olduğu zaman məsafəsində Mehriban xanım Əliyevanın imzası ilə Milli Məclisə təqdim edilmiş amnistiya təşəbbüsləri də cəmiyyətimizdə geniş rezonans doğurmuş və Mehriban xanımın humanizm prinsiplərinə sadiqliyini təsdiq etmiş oldu. Onun təşəbbüsü ilə hazırlanmış Amnistiya Aktları 2007, 2009, 2013 və 2016-cı illərdə Milli Məclis tərəfindən qəbul olunmuş, nəticədə, ümumilikdə, 30 mindən çox məhkum müxtəlif növ cəzalardan azad edilmişdir. ”Hər bir cəmiyyətdə mərhəmət, insanpərvərlik, qayğı kimi hisslər əsas yer tutmalıdır. O cəmiyyətdə ki, həm dövlət qurumları, həm vətəndaş cəmiyyəti, məhz bu prinsiplər əsasında həm öz həyatını, həm öz fəaliyyətini qurur, o cəmiyyət inkişaf etmiş, uğurlu cəmiyyətdir. Mərhəmət təkcə çətinliyə düşən insanlara yardım əlini uzatmaq deyil. Mərhəmət bəzən çətin və məsuliyyətli qərar qəbul etməyi tələb edir”, - deyir Mehriban xanım Əliyeva.



Azərbaycanın qadın hərəkatında güclü dövlət, ədalətli cəmiyyət və azad qadın anlayışı bir-birinə möhkəm tellərlə bağlanaraq, sosial-mədəni inkişafımızın aparıcı qüvvəsinə çevrilir.

Mehriban xanım Əliyeva Azərbaycan qadını obrazını, artıq dünyada yarada bilib. Dünyanın ən nüfuzlu mükafatlarının daşıyıcısı olan Mehriban xanım Əliyeva gördüyü şərəfli işlərin müqabilində bu nüfuza malikdir.

Belə bir missiyanı üzərinə götürən və yorulmadan çalışan Mehriban xanımın fəaliyyət dairəsi daim diqqətdədir və hər bir azərbaycanlı bu görülən işlərdən qürur duyur, xalqın bir nümunəvi Xanımı kimi xarakterizə olunur. Belə bir ömrü yaşayan Mehriban xanım Əliyeva siyasi fəaliyyəti, həm də bir qadın və bir ana kimi həyata keçirdiyi xeyriyyəçilik əməlləri, qayğıkeşlik nümunələri diqqətdən kənarda qalmır. Son dövr hadisələrində biz bunun bir daha şahidinə çevrildik.

### “BÜTÜN QARABAĞ ƏRAZİSİNDƏKİ MƏSCİDLƏRİMİZDƏ AZAN SƏSLƏRİ EŞİDİLƏCƏK, DUALAR OXUNACAQDIR!”

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Qarabağın tarixi şöhrətinin yenidən bərpası üçün yeni layihələr həyata keçirilir. Qarabağda keçirilən beynəlxalq tədbirlər, Şuşada Xarıbülbül festifalı və s. Mehriban Əliyevanın həyata keçirdiyi tədbirlər sırasındadır. Artıq Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə reallaşdırır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəsmi ”Instagram” səhifəsindəki paylaşımında qeyd edirdi: ”Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir
Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaqdır!”

Azərbaycan Prezidenti İlham Əliyevlə birgə Birinci vitse-prezidenti kimi cəbhə bölgəsinə, işğaldan azad olunmuş ərazilərimizə səfəri gördüyü işlərin xalqa və vətənə xidmət nümunəsi olaraq bir daha təsdiqidir. Son illərin tarixi gerçəkliklərinə nəzər salsaq görərik ki, O, həqiqətən də xalqla birgə yaşayır. Vətən müharibəsi dövründə bunun bir daha şahidinə çevrildik. ”Azərbaycan xalqı öz Prezidentinə inanır və əmindir ki, Prezident nəyi necə, nə vaxt etmək lazım olduğunu bilir”, - deyən Mehriban Əliyeva bildirib ki, buna görə də biz bütün hərəkətlərimizdə və fəaliyyətimizdə həmişəkindən daha çox həmrəyik: ”Şübhəsiz, bizim əsgərlərimiz bu dəstəyi hiss edirlər. Bilirlər ki, onların arxasında bütün Azərbaycan xalqı dayanır”.

Mehriban xanım Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ömür-gün yoldaşı olmaqla yanaşı, onun məslək yoldaşı və silahdaşıdır. Hər zaman bərabər addımlayan ehtibarlı silahdaş. Qarabağ torpaqlarının erməni işğalından azad olunması yolunda 44 günlük müharibədə Mehriban Əliyeva hər qələbə sevincini xalq ilə birgə yaşadı. Şəhid analarının kədərini bir ana kimi yaşadı, şəhid anaların yanında oldu, onlara təsəlli verdi. Qazilərimizə mərhəmət əlini uzatdı.

Ürəyi daima şəhid analarının ürəyi ilə döyündü, onların göz yaşı onun göz yaşı oldu. O, müqəddəs Ana şəfqəti ilə qəhraman Qazilərimizin yarasına məlhəm oldu. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə birgə Birinci Xanım Mehriban Əliyevanın Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksinin açılışında iştirakı ictimai-siyasi xadim kimi fəaliyyətinin bariz nümunəsidir.

Bu günlərdə Azərbaycan Respublikasının Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Sumqayıtda baş vermiş yanğının söndürülməsi iştirak etmiş dövlət qurumları əməkdaşlarına dərin minnətdarlığını bildirdi: ”Sumqayıt şəhərinin Hacı Zeynalabdin qəsəbəsində yerləşən ”Azərsun Sənaye Parkı”nın ərazisində baş vermiş yanğının söndürülməsi və nəticələrinin aradan qaldırılmasında iştirak etmiş dövlət qurumları əməkdaşlarının peşəkarlığı ilə fəxr edir və onlara dərin minnətdarlığımı bildirirəm”. Bu onu göstərir ki, nəcib əməllər sahib olan Mehriban Əliyeva ölkə həyatında baş verən hadisələrə həssaslıq və qayğı ilə, diqqətlə yanaşır. Bu onun həm Ana kimi, həm də ictimai xadim kimi böyük ürəyinin hökmü, vəzifə məsuliyyətindən doğan iradəsi və qətiyyətidir. Ümid və mərhəmət ünvanı olan Mehriban xanım Əliyeva Ramazan ayı münasibətilə paylaşımlar edərək sosial şəbəkə hesabında sosial xidmət müəssisəsinin ahıl sakinləri üçün Müqəddəs Ramazan ayı münasibətilə verilən iftar mərasimindən fotolar paylaşaraq ”Allah orucunuzu qəbul etsin!” yazıb.

Göründüyü kimi, Mehriban xanım Əliyeva istənilən bir çətin məqamda, xoş günlərdə xalqımızın yanındadır. Xoş niyyəti, nurlu əməlləri ilə.

***Nəzakət ƏLƏDDİNQIZI***

**Azərbaycanın ərazi bütövlüyü uğrunda öz canından keçmiş şəhid ailələrinə, həmçinin, müharibə əlillərinə dövlət tərəfindən hər zaman böyük diqqət və qayğı göstərilir. Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsi zamanı döyüş tapşırığının və ya döyüş təminatı ilə bağlı tapşırıqların yerinə yetirilməsi zamanı həlak olmuş və itkin düşmüş hərbi qulluqçulara, erməni hərbi təxribatı nəticəsində həlak olmuş və itkin düşmüş mülki vətəndaşlara, şəhidlik zirvəsinə ucalan hər bir şəhidin ailəsinə, qazilərimizə diqqət və qayğısını heç zaman əsirgəməmişdir. Sağlamlıqlarını torpaq uğrunda itirən Qarabağ əlillərinin mənzil-məişət şəraitləri yaxşılaşdırılır.**



# “Məmurlar şəhid ailələri ilə bir yerdə olmalı, onlara kömək göstərməlidirlər”

Şəhid ailələri və əlillərə mütəmadi olaraq yeni mənzillər, avtomobillər verilir. Onların müalicəsi üçün reabilitasiya mərkəzləri açılır və lazım gələndə isə müalicə olunmaq üçün xarici ölkələrə göndərilirlər. Bir sözlə, dövlətin bu təbəqəyə göstərdiyi qayğı göz önündədir və ilbəil artmaqdadır.Azərbaycanda Qarabağ müharibəsi əlillərinə, veteranlarına və şəhid ailələrinə göstərilən yüksək dövlət qayğısının əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Liderin bu təbəqədən olan insanlara göstərdiyi qayğı, bu istiqamətdə yürütdüyü dövlət siyasəti onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hər kəsə yaxşı məlumdur ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə olunması təşkil edir.

Bu gün Qarabağ müharibəsi əlillərinə, şəhid ailələrinə, veteranlarına Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən də yüksək diqqət və qayğı göstərilir. Elə bu günlərdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksinin və yeni inşa edilmiş 304 nömrəli tam orta məktəbin açılışında iştirak ediblər.

Görüşdə çıxış edən Prezident İlham Əliyev vurğulayıb ki, dövlət şəhid ailələrinin problemlərinin həlli üçün əlindən gələni edir və edəcək: ”Bütün məsələlərdə bütün dövlət məmurları, mərkəzi, yerli icra orqanları daim şəhid ailələri ilə bir yerdə olmalıdırlar, kömək göstərməlidirlər. Bu, bizim borcumuzdur”.

Dövlət başçısı onu da vurğulayıb ki, bu işdə dövlət məmurları birlik, həmrəylik göstərməlidir: ”Bizim əsas borcumuz erməniləri torpaqlarımızdan qovmaq idi və Mahir kimi övladlarımız buna nail oldular. İndi isə şəhidlərimizin yaxınlarına diqqət göstərmək hər bir dövlət məmurunun borcudur və cəmiyyətdə bu məsələ ilə bağlı tam həmrəylik var. Nəinki dövlət qurumları, istənilən insan çalışır ki, şəhid ailəsinə hansısa bir kömək göstərsin. Məşğulluqla bağlı. Bizim qazilərimiz də çox olub. On mindən çox yaralı əsgər-zabitimiz olub. Onların da sağalması prosesi gedir. Onlar üçün artıq son model olan iki yüz protez təşkil edilib və onlar normal həyata qayıdıblar. Dövlət öz üzərinə nə düşürsə etməlidir və edəcək...”.

## ”BİRİNCİ VƏ İKİNCİ QARABAĞ MÜHARİBƏLƏRİNİN ŞƏHİDLƏRİNİN AİLƏLƏRİNƏ BU GÜNƏ QƏDƏR 12 MİNDƏN ÇOX MƏNZİL VERİLİB”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial qayğıya ehtiyacı olan vətəndaşları hər zaman xüsusi nəzarətdə saxlayıb. Elə bu günlərdə Prezident İlham Əliyev Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün yeni yaşayış kompleksinin açılışı bu reallığın təsdiqidir. Şəhid və qazi ailələrinin sosial təminatının yaxşılaşdırılması üçün dövlət bütün gücünü səfərbər edib. Həm Birinci, həm də İkinci Qarabağ müharibələri zamanı şəhid olmuş qəhrəman zabit və əsgərlərin ailələrinin mənzil təminatının, həmçinin qazilərin sosial vəziyyətinin yaxşılaşdırılması, eyni zamanda, müharibədə qəhrəmanlıqla döyüşmüş və qazi adı qazanmış veteranların avtomobillərlə təmin olunması üçün ölkədə bir çox sosial layihələr həyata keçirilib. Bu gün də belə sosial layihələr dövlət tərəfindən uğurla davam etdirilir.

”Əlbəttə, biz bütün şəhidlərimizin ailələrinin məişət problemlərini həll etməyə çalışırıq və çalışacağıq. Bu, bizim borcumuzdur,-deyən dövlət başçısı vurğulayaraq bildirib ki, Prezident kimi mənim və dövlətimizin borcudur: ”Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ailələrinə bu günə qədər 12 mindən çox mənzil verilib. Bu, yenə də bizim borcumuzdur. Əsas təsəlli odur ki, o, əbədiyyətə qovuşub, şəhadət zirvəsinə qovuşub. Bu dünyada heç kim əbədi qalmayacaq, hamımız gec-tez haqq dünyasına qovuşacağıq. Əlbəttə ki, gənc yaşında həyatdan getmək böyük faciədir, ancaq nə deyə bilərik. Yeganə təsəlli odur ki, o, Vətən uğrunda döyüşüb, vuruşub, həlak olub və eyni zamanda, onun qanı yerdə qalmayıb. O, oktyabrın 19-da rəhmətə getmişdir. Artıq Füzuli şəhəri işğaldan azad edilmişdir. Ondan sonra onun yoldaşları müzəffər yürüşünü axıra qədər davam etdirərək bayrağımızı Şuşada sancdılar, düşməni qovduq və haqq-ədaləti bərpa etdik... İndi torpaqların yenidən qurulması işinə start vermişik. Azad edilmiş torpaqlarda, indi yaradılan binalarda, evlərdə, məktəblərdə, xəstəxanalarda, o binaların hər bir daşında şəhidlərimizin əbədi təsviri həkk olunub. Onlar bu torpaq üçün həlak oldular, Vətəni hər şeydən üstün tutdular. Bir daha demək istəyirəm, həm Aprel döyüşləri zamanı, həm İkinci Qarabağ müharibəsində Mahir əsl vətənpərvərlik göstərmişdir. İndi onun xatirəsini yaşatmaq, onun övladını dəyərli vətəndaş kimi böyütmək yəqin ki, sizin üçün əsas məsələdir. Dövlət üçün də əsas məsələdir”.

## “BÜTÜN DÖVLƏT MƏMURLARI ŞƏHİD AİLƏLƏRİ İLƏ BİR YERDƏ OLMALI, ONLARA KÖMƏK GÖSTƏRMƏLİDİRLƏR”

”Bütün məsələlərdə bütün dövlət məmurları, mərkəzi, yerli icra orqanları daim şəhid ailələri ilə bir yerdə olmalıdırlar, kömək göstərməlidirlər. Bu, bizim borcumuzdur”. Bunu Prezident İlham Əliyev Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün yeni yaşayış kompleksinin açılışında çıxışı zamanı deyib. Dövlətimizin başçısı qeyd edib ki, bizim əsas borcumuz erməniləri torpaqlarımızdan qovmaq idi və buna nail olduq. İndi isə şəhidlərimizin yaxınlarına diqqət göstərmək hər bir dövlət məmurunun borcudur və cəmiyyətdə bu məsələ ilə bağlı tam həmrəylik var: ”Nəinki dövlət qurumları, istənilən insan çalışır ki, şəhid ailəsinə hansısa bir kömək göstərsin. Bizim qazilərimiz də çox olub. On mindən çox yaralı əsgər-zabitimiz olub. Onların da sağalması prosesi gedir. Onlar üçün artıq son model olan iki yüz protez təşkil edilib və onlar normal həyata qayıdıblar. Dövlət öz üzərinə nə düşürsə etməlidir və edəcək”.

## ”ONLAR BU TORPAQ ÜÇÜN HƏLAK OLDULAR, VƏTƏNİ HƏR ŞEYDƏN ÜSTÜN TUTDULAR”

”Biz Birinci Qarabağ müharibəsini də heç vaxt unutmamalıyıq, şəhidləri unutmamalıyıq. O vaxt onlar şəhid oldular, amma torpaqlar da getdi. Bu dəfə şəhid oldular, amma torpaqlar qayıtdı. Fərq budur və təsəlli bu ola bilər”,-deyən dövlət başçımız qeyd edib ki, yaxın, doğma adamın itirilməsinin yarası heç vaxt sağalmayacaq. Amma həyat davam edir və davam edəcək: ”İndi torpaqların yenidən qurulması işinə start vermişik. Azad edilmiş torpaqlarda, indi yaradılan binalarda, evlərdə, məktəblərdə, xəstəxanalarda, o binaların hər bir daşında şəhidlərimizin əbədi təsviri həkk olunub. Onlar bu torpaq üçün həlak oldular, Vətəni hər şeydən üstün tutdular. Dövlət də şəhid ailələrinin problemlərinin həlli üçün əlindən gələni edir və edəcək”.

”Qələbə parkında hər bir şəhidin adı yazılıb. Zəfər muzeyi də yaradılacaq” - dövlət başçısı çıxışı zamanı söyləyib. ”Zəfər parkı Bakının ən möhtəşəm yerlərinin birində, bəlkə də birincisində - Dənizkənarı bulvarın önündədir. Orada böyük xatirə kompleksi inşa ediləcək. İşlərə yaxın zamanlarda start veriləcək. Hər şəhidin adı orada həkk olunacaq. Azad edilmiş bütün şəhərlərdə, hər bir şəhərdə Zəfər muzeyi, İşğal muzeyi yaradılacaq. Yəni, bütün şəhidlərimizin adı əbədi yaşayacaq. O sevinci onlar bizə bəxş etdilər”, - deyə Azərbaycan Prezidenti vurğulayıb. Bəli, dövlət başçısı çıxışlarında dəfələrlə vurğulayıb ki, dünyada öz vətəndaşına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur. Və ölkə başçısının bu cavabı Azərbaycan dövlətinin sosial siyasətinin fəlsəfəsi, iqtisadi inkişafın nəticələrinin əhalinin rifah halının yüksəldilməsinə yönəldilən real sübutudur. Bu prinsip hər gün daha geniş şəkildə davam etdirilir. Xüsusən, ötən illərdə dünyada hökm sürən maliyyə böhranı bir çox ölkələrdə sosial problemləri kəskinləşdirdiyi halda, ölkəmizdə sosial layihələr və iqtisadi islahatların icrası zəifləmədi, hətta əvvəlki sürətlə davam etdirildi. Bu gün ölkə Prezidentinin həyata keçirdiyi uğurlu sosial siyasəti bunun sübutudur. Bir sözlə, bütün bu uğurlu işlər onu göstərir ki, dövlət Vətən Müharibəsi Qəhrəmanlarına, şəhid ailə üzvlərinin sosial məsələlərinin həllini xüsusi diqqət mərkəzində saxlayır və bundan sonra da saxlayacaq.

***RƏFİQƏ HÜSEYNOVA***

# 200 evdən gələn işıq



**Ramazan bayramının ilk günü 200 evdən gələn işıq öz nurunda çox məqamları açıqlayır, xalqımızın milli mənəvi dəyərlərindən, o dəyərləri bu günlərədək gətirib çıxaranlardan, azərbaycanlıların torpaq sevgisindən, 2020-nin Zəfərindən, axan şəhid qanlarından, yaralanan minlərlə qazilərdən və dövlətimizin şəhidinə-öz övladına göstərdiyi diqqətdən, qayğıdan, onların ailələrinə göstərdiyi nəvazişdən, bir də xalq-dövlət birliyindən söhbət açır...**

200 evdən ətrafa yayılan nur 200 şəhid və qazi ailəsinə göstərilən qayğıdan, dövlətimizin öz insanlarına dəyərindən söhbət açır. Müqəddəs Ramazan bayramında 200 ailənin evinin pəncərəsindən süzülən işıq 200 şəhid və qazinin Vətən yolunda mübarizliyindən, Qarabağa vurğunluğundan, Vətənin səsinə səs verib müqəddəs torpaqlarımıza yollanmalarından, Ali Baş Komandanın ətrafında sıx birləşmələrindən, 30 ilin həsrətini vüsala çevirmələrindən söhbət açır. Bu işıq Böyük Qarabağ Zəfərindən axıb evlərə dolur. Zəfərin bir parçasına çevrilir. Bu işıq dövlətimizin güçünü göstərir. Göstərir ki, müharibədən qısa müddət sonra bu dövlət şəhidinin, qazisinin ailəsini belə mənzillərlə, avtomobillərlə təmin etmək gücündədir. Bu mənzillər həm də ötən və bu il verilən mənzillərin davamıdır.

## Ötən il 3000, bu il 1500

Bunu dövlətimizin başçısı cənab İlham Əliyev belə təhlil etdi: "Bilirsiniz, bu evlər məcburi köçkünlər üçün inşa edilmişdi. İşğal dövründə məcburi köçkünləri yerləşdirmək üçün, normal şərait yaratmaq üçün böyük işlər görüldü və belə gözəl şəhərciklər yaradıldı. Amma müharibədən sonra mən qərar qəbul etdim, onlar üçün nəzərdə tutulan yerləri biz şəhid ailələrinə təqdim edək ki, onlar çox vaxt gözləmədən tezliklə bu mənzillərlə təmin olunsunlar. Çünki hələ də, - onu da deməliyəm, - Birinci Qarabağ müharibəsinin şəhid ailələrinin bəziləri evlərlə təmin edilməyib. Düzdür, 12 min 500 mənzil verilib, ancaq hələ də növbədə duranlar var. Ona görə mən dedim ki, birincisi, məcburi köçkünlər üçün biz artıq Qarabağda, Zəngəzurda evlər tikməyə başlamışıq. Onlar orada yaşamalıdırlar. İkincisi, tezliklə şəhid ailələri, yaralı olan hərbçilərimizin problemlərinin həlli üçün bu gözəl evləri biz şəhid ailələrinə təqdim edək. Keçən il 3 min, bu il 1500 mənzil verilib və bundan sonra da veriləcək. Bu mənzillərdə yaşamaq üçün bütün şərait var. Amma ondan sonra məşğulluqla bağlı, - mən bilirəm ki, siz işləyirsiniz, - pensiyalarla, təqaüdlə bağlı bütün bu məsələlər, həmçinin şəhidlərin yaxınları daim diqqət mərkəzində olmalıdırlar ki, sizin və sizin kimi şəhid ailələrinin həyatında heç bir problem olmasın. Mən Prezident kimi bütün dövlət qurumlarına bunu tapşırmışam, bu gün də mənim sözlərimi eşidirlər. Bu, bizim borcumuzdur".

## 200-ün 1-də atasının üzünü görməyən övlad böyüyəcək

Dövlətimizin başçısı cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Vətən müharibəsində şəxsi igidliyinə və şücaətinə görə "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmiş şəhid Mahir Məmmədovun ailəsinin qonağı olması, Ramazan bayramının ilk günü onların mənzilində olması, ailə ilə bir masa ətrafında əyləşmələri bu şəhid ailəsi üçün nə qədər qürurvericidirsə, hər bir azərbaycanlı üçün də o qədər qürurvericidir.

Bayram gecəsi onların pəncərələrindən gələn işıq bütün şəhidlərin, eləcə də Mahirin məzarının üzərinə nur çiləyir. Çünki Mahir həyatını Vətən yolunda qurban verən minlərlə oğullarımızdan biridir. O, torpaq sevdalılarındandır. Namusumuz, arımız olan Qarabağın xilaskarlarındandır. Müharibəyə yollanmamışdan cəmi 7 gün əvvəl doğulan övladının üzünü görməyən, ətrini duymayan, onu bağrına basmayan, böyüməsini izləməyən atalardandır. Ömrü yarımçıq qalan, arzuları məhv olan oğullarımızdandır. Lakin Prezidentin də dediyi kimi bu itkilər torpaqlarımızn qayıtması üçün olub: Birinci Qarabağ müharibəsində şəhidlərimiz olub, bu günə qədər 4 minə yaxın insan itkin düşmüş hesab olunur. Aydın məsələdir ki, onlar həyatda deyil, həyatını itiriblər və ümumiyyətlə, 15 mindən çox şəhidimiz olubdur. Buna baxmayaraq, torpaqlarımız da əldən gedib. Amma İkinci Qarabağ müharibəsində şəhidlərimiz az olub. Halbuki, hər bir şəhidin həyatı təkrarolunmazdır, əvəzolunmazdır. Ancaq əməliyyatlar aparılan zaman vacib şərtlərdən biri də o idi ki, itkilərimiz az olsun və torpaqlarımız da geri qayıtdı. Bu mənzildə Mahirin Səlim adlı övladı böyüyəcək. Hər bir şəraitlə təmin olunmuş bir mənzildə Səlim vətənpərvər, atası kimi qəhrəman, torpaq sevgili, Vətən məhəbbətli böyüyəcək. Və bir gün bu mənzil haqqında anasından eşidəcək. Biləcək ki, yaşadığı mənzil onun firavan böyüməsi üçün dövlətimiz tərəfindən şəhid atasına verilən evdir. Qürur duyacaq: həm atası, həm dövləti ilə. Belə bir şəraitdə böyüyən, tərbiyə alan uşaqlar təbii ki, vətənpərvər böyüyəcəklər, ötən 18 ildə olduğu kimi...

## Pəncərələrdən süzülən işıq

Xalqımızda işıqla bağlı adətlər var. Məsələn, bir evdən kimsə dünyasını dəyişəndə onun otağının işığı yanılı saxlanılar. Bütövlükdə həmin evin işıqları söndürülməz. Hələ insan dünyasını dəyişən günün gecəsi məzarı üstündə şam yandırılması adəti də var. Həm də bu işıqlar ev sakinləri tərəfindən yandırılmaz. Yaxınlıqdakı qonşuların ağsaqqal, ağbirçəkləri gələr, işıqları yandırarlar. Bu adətlər həyatın davamı deməkdir. Burada sonrakı nəsl var, onlar yaşamalı, həyatı davam etdirməlidirlər, deməkdir.

Pəncərədən gələn işıq həyat deməkdir. Şəhidlərimizin hər birinin ailəsinə verilən mənzillər də bu qədim adət-ənənələrimizdən qaynaqlanır. Bu, onların ailələrindəki övladların həmin mənzillərdə yandırılan işığın şövqündə firavan böyüməsi üçün edilir. Ailə üzvlərinin rahatlığı, mənzil sarıdan çətinlik çəkməməsi üçün edilir. Həmçinin də qazilərimizin ailələri üçün. Qazi olan insanın özünə ev tikməyə artıq sağlamlığı imkan verməediyi üçün bu, dövlətimiz tərəfindən həyata keçirilir. Çünki onlar artıq rahat şəkildə yaşamağa məcburdurlar. Övladlarına isə edə bilmədiklərini dövlətin etməsi onlara verilən dəyərdir. Bütün bu diqqət, qayğı, dəyər və qiymətin fonunda gündən-günə pəncərələrdən gələn işıqların sayı artır. Artıqca da dövlət-xalq birliyi daha da möhkəmlənir. Dövlətimizin şəhid və qazi ailələrinə verdiyi mənzillərdə yandırılan işığı bütün xalqın nura boyanması ilə nəticələnir. Bu nur xalqa ancaq birlik, həmrəylik, bir də Zəfər bəxş edir.

## Bu işıq Zəfər işığıdır

Bəli, bu mənzillərdən gələn işıq Zəfər işığıdır. Vətənin harayına səs verib Qarabağa yollananların, 30 illik qədim torpaqlarımızı erməni işğalından azad edənlərin, o torpaqlara təşnəli olan minlərlə qaçqın, köçkünün həsrətinə son qoyanların, Qarabağ Vətəni Azərbaycanın qoynuna verənlərin, üçrəngli bayrağımızı o torpaqlarda dalğalandıranların sayəsində Qarabağ torpaqlarına bəxş olunan işıqdır. Zəfər işığıdır. İndi o işıq Qarabağdan minlərlə ailəyə paylanır. O evləri nura boyayır. "Həyat davam edir",- deyir. Prezident cənab İlham Əliyevin dediyi kimi: Yəni, o, həyatda övladını, gənc həyat yoldaşını, qardaşını, anasını qoyub getdi. Bilirsiniz, müharibədən sonra şəhid ailələri ilə, veteranlarla, qazilərlə çoxsaylı görüşlərim olub. Hər bir görüş bir daha xalqımızın böyüklüyünü göstərir. Çünki öz oğlunu, həyat yoldaşını, qardaşını itirmək böyük faciədir. Ancaq bu, xalqımızın iradəsini sarsıtmadı. Biz Mahir kimi qəhrəmanlar hesabına bundan sonra qəhrəman və müzəffər xalq kimi əbədi yaşayacağıq. Yenə də deyirəm, biz Birinci Qarabağ müharibəsini də heç vaxt unutmamalıyıq, şəhidləri unutmamalıyıq. O vaxt onlar şəhid oldular, amma torpaqlar da getdi. Bu dəfə şəhid oldular, amma torpaqlar qayıtdı. Fərq budur və təsəlli bu ola bilər. Əlbəttə, yaxın, doğma adamın itirilməsi yarası heç vaxt sağalmayacaq. Amma həyat davam edir və davam edəcək.

## Biz müzəffər xalq kimi yaşayırıq!

Ramazan bayramı günü 200 pəncərədən süzülən işıq bir də onu göstərir ki, biz müzəffər xalqıq, Vətən uğrunda canımızdan keçən, bir qarış torpağımız üçün ömrümüzü, gələcəyimizi fəda edən bir xalqıq. Dövlətimizin başçısının gözəl təhlili kimi: Mən yenə də deyirəm, ömrün əvvəli də, sonu da var, heç kim həyatda əbədi qalmır. Amma şəhid olmaq, bu, doğrudan da xalq qarşısında, tarix və gələcək nəsillər qarşısında böyük xidmətdir. Şəhid əbədi qalır, əməyi və qəhrəmanlığı əvəzolunmazdır. Çünki canını fəda edir ki, torpaqlar azad olunsun və ədalət bərpa olunsun, xalqımızın ləyaqəti bərpa olunsun. Çünki otuz il torpaqlarımız işğal altında qalıb və xalqımız mənəvi əzablar çəkib - hər birimiz, o cümlədən Mahir. Onu irəliyə aparan məhz Vətən sevgisi olub, bu ədalətsizliklə barışmazlığı olub. Canını fəda edib, amma onun kimi övladlarımız xalqımızın ləyaqətini bərpa etdilər. Bu, qələbə qədər vacib məsələdir, gələcək nəsillərin yetişməsi və tərbiyəsi üçün əvəzolunmaz amildir. Çünki biz artıq ilyarımdır ki, müzəffər xalq kimi yaşayırıq. Əvvəllər torpaqları işğal edilmiş xalq kimi yaşamışıq.

***Mətanət Məmmədova***
***Əməkdar jurnalist***

# "Heydər Əliyev dövlət qadın və gənclər siyasətinin müəllifidir" mövzusunda konfrans keçirilib

Mayın 4-də Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatı və Bakı Gənclər Mərkəzinin birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş "Heydər Əliyev dövlət qadın və gənclər siyasətinin müəllifidir" mövzusunda konfrans keçirilib. Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzüblər. Bakı Gənclər Mərkəzində keçirilən konfransda ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirin moderatoru, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva ulu öndər Heydər Əliyevin xalqımız qarşısında xidmətlərindən danışıb. O Ümummilli liderimizin müəyyənləşdirdiyi dövlət qadın və gənclər siyasətinin əhəmiyyətindən də ətraflı bəhs edib.






Konfransda çıxış edən YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva Azərbaycanda dövlət qadın siyasətinin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu bildirib. Qeyd edib ki, Ulu Öndərin hakimiyyətinin bütün dövrlərində qadınlara göstərilən diqqət və qayğının artdığının şahidi olmuşuq. Onun sözlərinə görə, Ulu Öndərimizin müəyyənləşdirdiyi bu siyasət Prezidentimiz cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Dövlət Komitəsinin sədr müavini vurğulayıb ki, Respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti Azərbaycan qadınları üçün örnəkdir.

Çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvü Pərvin Kərimzadə qeyd edib ki, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında xidmətləri misilsizdir. Onun sözlərinə görə, bu gün Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatının elə bir sahəsi yoxdur ki, o sahənin inkişafı Ulu Öndərin adı ilə bağlı olmasın. Deputat dövlət qadın və gənclər siyasətinin uğurlarından bəhs edərək deyib ki, hər iki təbəqənin nümayəndələri müxtəlif sahələrdə böyük nailiyyətlər əldə edirlər. Əlbəttə ki, bu nailiyyətlərin əsasında dövlətimizin diqqət və qayğısı dayanır.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov isə çıxışında deyib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin başlıca məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdir. O vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıb. B.İslamov qeyd edib ki, Azərbaycan gəncliyi 44 günlük Vətən müharibəsində böyük şücaət göstərərək tarix yazdı.

Konfransda Bakı Gənclər Mərkəzinin direktor müavini Arzu Əzizova çıxış edərək gəncliyin inkişafı ilə bağlı həyata keçirilən proqramların əhəmiyyətindən danışıb. O, eyni zamanda Bakı Gənclər Mərkəzinin bu istiqamətdə reallaşdırdığı layihələr və tədbirlər haqqında da məlumat verib. Konfransın sonunda ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş "Unudulmaz gün" adlı sənədli film nümayiş olunub.

# Yeniyetmələr arasında intihar hadisələrinin artmasına

## CƏMİYYƏTİN BAXIŞI



**Ölkəni intihar dalğası bürüyüb. Son günlər ölkədə yeniyetmələrin intihar etməsi hadisələri artmağa başlayıb. Sosial şəbəkələrin və medianın sensasiya ardınca qaçması bu bəlanın kütləviləşməsinə böyük təsir göstərir. İntihar hadisələrinə hər kəsin baxış bucağı fərqlidir. Bəs görək şəhər sakinləri bu barədə nə düşünür. SİA bu mövzu ilə bağlı sorğu keçirib.**

**Şəhər sakini Nazim Sabiroğlu:** "İntihar səbəbləri çox ola bilər. Kimisi imtahanda pis nəticə göstərdiyi



üçün, kimisi ailə basqısı səbəbilə intihara üz tutur. Lakin intihar nə dini, nə də mənəvi nöqteyi-nəzərdən çıxış yolu deyil. Səbəbləri daha çox ailədə axtarmaq lazımdır. Ümumiyyətlə, bütün bunlar çox təəssüfedici haldır".

**Şəhər sakini Kişvər Qarayeva:** Belə halların olmaması üçün gərək ailədə uşaqlara ciddi nəzarət olunsun. Valideynlər uşaqlarının hara get-



diyinə, kimlərlə dostluq etdiyinə diqqət etməlidir. İndiki zəmanədə uşaqlar da sözəbaxan deyillər. Özbaşınalıq, valideynlərdən uzaqlaşmalar intihar hallarının artmasına gətirib çıxarır".

**Şəhər sakini Orxan Mirzəyev:** "Düşünürəm ki, ailədə diqqətsizlik



azyaşlılar arasında intihara, cinayətə meyilliliyə səbəb olur. Eyni zamanda, ailə basqısı da uşaqların psixologiyasına təsir edir. Psixoloji pozuntular da intihar hadisələrinin artmasına gətirib çıxarır".

**Şəhər sakini Ruhəngiz Mehdiyeva:** "Məncə, son zamanlarda gənclər arasında intihar hadisələrinin çoxalmasından cəmiyyət bir dərs çıxarmalıdır. Bu halların səbəbləri dərin-



dən araşdırılmalı və insanlar da həmin səbəblərin olmaması üçün əlindən gələni etməlidir. Valideynlərin uşaqlarını nəyə isə məcbur etməsi onların üzərinə ağır yük qoyur. Uşaqlar da çıxış yolunu intiharda görür".

**Şəhər sakini Yaşar Şahverdiyev:** "Ailədaxili münaqişələr, psixolo-



ji problemlər uşaqlara da yansıyır. Hər problemi, dərdi uşağa bildirmək lazım deyil. Uşaqlar yeniyetmə yaşında formalaşırlar. Ona görə də uşaqlara düzgün tərbiyə vermək, onları düzgün yönləndirmək lazımdır".

**Şəhər sakini Sünbül Tağıyeva:** "Hər şey ailədən başlayır. Uşaq yaşlarından qızın dostu anası, oğlanın dostu da atası olmalıdır. Bir problemləri olanda valideynləri ilə bölüşməlidir. Valideyn uşağa hər bir şeyi vaxtlı-vaxtında izah etməlidir ki, özlərini tənha hiss etməsinlər. Ailə uşağa yaxşı tərbiyə verməlidir, uşağın dostu olmalıdır".

***Ləman Əlizadə***



# "Azərbaycanda təhsil hər zaman əsas faktorlardan biri olub"

**"Azərbaycanda təhsil hər zaman önəmli məsələ olub. Valideynlər övladına yaxşı təhsil verməsi üçün əlindən gələni edir. Bu gün təhsil uğurlarımızın bünövrəsi Ümummilli liderimiz tərəfindən qoyulub. Ulu öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldiyi zaman təhsil işçiləri ilə görüşüb, təhsil problemləri ilə maraqlanaraq bu sahədə dövlət qanunu qəbul etdi". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Vüqar İskəndərov bildirib.**

Onun sözlərinə görə, cənab Prezident İlham Əliyev və birinci Vitse-Preizdent Mehriban Əliyevanın təhsilə olan diqqət və qayğısı bütün azərbaycanlılara məlumdur: "Ölkə rəhbəri təhsilə xüsusi diqqət ayırır və ölkəmizdə ən çox maliyyə ayrılan sahələrədn biri məhz təhsil sahəsidir. Demək olar ki, müntəzəm olaraq ölkəmizdə yer alan məktəblər və baxçalar yenidən qurularaq, əsaslı təmir olunur. Təkcə şəhər mərkəzlərində deyil, ən ucqar bölgələrimizdə belə uşaqlarımızın təhsil almasına önəm verilərək, məktəblər təmir olunur. Bütün təmir olunan müəssisələr müasir və modern standartlara cavab verir. Həmçinin son illərdə müəllimlərin işə qəbulu ilə bağlı yeniliklər edilir və s. Bütün bunların hər biri dövlət siyasətinin tərkib hissəsidir. Cənab Prezident həm gənclərlə, həm də yeniyetmələrlə görüşü zamanı onların keyfiyyətli bir formada təhsil almasını tövsiyyə edir. Heydər Əliyev Fondu Azərbaycan təhsilinə çox böyük töhvələr verir. Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə Fondun yüzlərlə inşa edtiyi məktəblər və baxçalar mövcuddur ki, onlar bu gün çox fəal bir şəkildə fəaliyyət göstərirlər".

***Banuçiçək Hüseynli***

# "Təhsil sahəsində atılan addımlar öz bəhrəsini verir"

"Biz son dövrlər ərzində onu müşahidə edirik ki, Azərbaycan Respublikasında təhsilə diqqət və qayğı var. Xüsusilə də istər dövlət başçısı, istərsə də Birinci vitse-prezident tərəfindən müvafiq olaraq təhsil sahəsində mütərəqqi addımların atılması, prioritet məsələlərin həlli ilə bağlı müvafiq tapşırıqları müşahidə edirik. İstənilən halda bütün bunlar yəni, baş verən bu islahatlar təhsil üçün bir növ yatırım xüsusiyyətinə malikdir". Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi deyib.

Onun sözlərinə görə, hal-hazırda respublikanın müxtəlif şəhər və rayonlarında, eyni zamanda qəsəbə və kəndlərində məktəb tikintilər həyata keçirilir: "Həmçinin məktəblərin daha müasir standartlara cavab verən avadanlıqlarla təmin olunması ilə bağlı işlər görülür. Əlbəttə bu birbaşa dövlət başçısının müvafiq tapşırıqları əsasında baş tutur. Təsadüfi deyil ki, ucqar dağ kəndlərində və yaxud da ucqar rayonlarda biz modul tipli məktəblərin tikintisinin şahidi oluruq. Bugünkü gündə Heydər Əliyev Fondu tərəfindən, eyni zamanda dövlət büdcəsindən ayrılan maliyyə vəsaitləri hesabına respublikanın müxtəlif yerlərində biz bu tikinti işlərinin sırf təhsillə bağlı məktəblərin müvafiq olaraq universitetlərin tikintisinin şahidi oluruq.

Son illər biz onu müşahidə edirik ki, təhsilə olan diqqət və qayğının nəticəsidir ki, xaricdə təhsil almaq istəyən və dövlət proqramı ilə, dövlət xətti ilə xaricdə təhsil almağa can atan vətəndaşlarımız var. Yəni, həmin onlar bu diqqət və qayğını üzərlərində hiss edirlər. Mən təkcə bu məktəb tikintisini demək istəməzdim. Burada digər məqamlar da var. Məsələn, son dövrlər biz müşahidə etdiyimiz Tələbə Təhsil Kredit Fondu yaradıldı. Dövlət başçısının sərəncamı və bu fond əsasında bu vaxta qədər maliyyə cəhətdən sıxıntı yaşayan və təhsilini buna görə dayandıran tələbələr artıq qeydiyyat hesabına öz təhsillərini davam etdirə biləcəklər. Bu mütərəqqi bir addımdır.

Eyni zamanda ölkədə təhsili ilə



bağlı müvafiq işlər görülür. Bununla bağlı dövlət başçısı tərəfindən xüsusi tapşırıqlar verilib və yüksək ixtisaslı kadrların müvafiq postlara təyin olunması ilə bağlı, onların hazırlanması ilə bağlı işlər görülür. Bunlar hamısı təhsil adına atılan mütərəqqi addımlardır və bugün üçün olmasa da təxminən 3-5 il sonra biz daha effektiv nəticələrin şahidi olacağıq".

Elçin Əfəndi sözlərinə belə davam edib: "Hal-hazırda bilirsiniz ki 4 min 447 orta ümumtəhsil müəssisəsi var və bunların içərisində bəzilərinin təmir-tikintiyə və yaxud da bərpaya ehtiyacı var. Bu səbəbdən Dövlət Başçısının müvafiq tapşırığı əsasında işlər aparılır. Yəni, bəzi məktəblər var ki, orada tikinti, təmir-bərpa işləri həyata keçirilir. Təsadüfi deyil ki, son 5-6 il ərzində yüzlərlə belə məktəb tikilib. Yəni, biz müxtəlif regionlarda məktəblərin açılışının şahidi olmuşuq. Bundan əlavə işğal altından azad olunan ərazilər ki var, orada da hal-hazırda müvafiq olaraq məktəb tikintiləri həyata keçirilir, təhsil ocaqları yaradılır.

Təhsil sahəsində müxtəlif istiqamətlərdə islahatların aparılmasını müşahidə edirik. Müəllimlərin işə qəbulu ilə bağlı da müvafiq qərar dəyişiklikləri oldu. Bu yaxınlarda əvvəlki qaydada deyil, daha yeni qaydada müəllimlərin işə qəbulu həyata keçiriləcək. Hər il dövlət büdcəsindən müvafiq yardımın ayrılması ilə ödənişsiz əsaslarla oxuyan tələbələr üçün imkan yaradılır. Yəni, demək olar ki, artıq dövlət sifarişi ilə oxuyan tələbələrin sayı ödənişli oxuyan tələbələrin sayına bərabərdir, biraz ondan artıqdır. Bu da təhsil üçün atılan növbəti uğurlu addımlardan biridir.

Dövlət başçısı tərəfindən regionlarda təhsilin inkişafı ilə bağlı müvafiq dövlət proqramını nəzərə alsaq, bu yaxınlarda da verilən qərar əsasında artıq 12 regional təhsil idarəsi yaradıldı və müvafiq olaraq bir neçə gün əvvəl Təhsil Nazirliyi tərəfindən həmin regional təhsil idarələrinə rəhbər işçilər təyin olundu və bunlar da ən azı regionlarda təhsilin inkişafına mühüm töhfə verəcək qərarlardandır. Son olaraq qeyd edim ki, təhsil sahəsində atılan addımlar öz bəhrəsini verir və verəcək".

***Ayşən Vəli***

**Tanrı bəzən yer üzünə elə dühalar bəxş edir ki, onlar haqqında söz söyləməyə, yazı yazmağa çətinlik çəkirsən. Ən azı ona görə ki, tanrının göndərdiyi belə qüdrət sahiblərini olduğu kimi dərk etmək, onu necə varsa elə də anlamaq çətin olur, hətta bəzən mümkün olmur. Belə şəxsiyyət etalonlarını dərk etmək üçün orta statistik insan ömrü yetmir. Nə yazıqlar ki, bəşəriyyət hələ də iki ömür yaşamaq kimi bir şansı kimsəyə nəsib etməyib. Nəsib etmədiyinə görə də tanrının xüsusi missiya ilə yer üzünə bəxş etdiyi və həyatı, fəaliyyəti ilə rəmzə çevrilən belə dühaları da zamanında dərk etmək, sadəcə, mümkünsüzə çevrilir.**

Həyatı dərk elədiyi ilk günlərdən bütün ömrünü mənsub olduğu xalqın, bütövlükdə bəşəriyyətin, insanlığın xilasına, yolundan çıxmış bir "qatar"ı yoluna qaytarmağa kökləyən bir dahi haqqında söz söyləmək kimi çətin, amma şərəfli bir məsuliyyəti üzərimə götürdüyümə görə oxucum məni qınamasın. Bəlkə də həyatı dərk elədiyim ilk gənclik çağlarından təşkilatçılığı, qətiyyəti, qeyri-adi idarəetmə bacarığı, milli ruha bağlılığı ilə məndə özünə anlaşılmaz bir duyğu formalaşdıran, sonrakı dövrlərdə şəxsən görüşmək, bəzən saatlarla söhbət etmək kimi çoxlarına nəsib olmayan xoşbəxt bir tale yaşadığımdan özümdə bu cəsarəti tapa bilirəm və söyləməmək, yazmamaq, susmaq kimi daxili hisslərimi cilovlaya bilirəm. Cəmi otuz ildə çox millətlərin yüz ilə qət edə bilmədiyi tarixi yolu fantastik sürət hesabına finişə yaxınlaşdıran bir dövlətçilik strategiyası və strateq haqqında yazmaq istəyirəm - HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEV haqqında!..



# Tariximizin HEYDƏR ƏLİYEV erası

## Milli fədakarlığın HEYDƏR ƏLİYEV zirvəsi!

Alman filosofu Karl Marks dostu Fridrix Engelsə məktublarının birində yazırdı: "Əzizim Fridrix, unutmayaq ki, ən böyük tarix yaradan xalq türklərdir ki, yaratdıqları tarixi yazmaqda ən tənbəl xalq yenə türklərdir!" Alman filosofunun bu fikirlərinin həqiqət olduğu şübhəsizdir. Tarix boyu dünya güclərinin hücumlarına məruz qalsa da, hər dəfə böyük sərkərdələrin sayəsində düşmənlərini əzə bilən, heç vaxt mütiliyi qəbul etməyən, zaman-zaman nizamı pozulan dünyaya nizam gətirən, yeni düzən formalaşdıran bir xalqın qəhrəmanlıqlarla dolu tarixini qeyri-türk mənbələrdən əldə etmək məcburiyyətində qalırıqsa, demək filosof haqlıdır.

Dini mənbələrə görə islam Peyğənbəri Həzrət Məhəmməd (s.s) hədislərindən birində buyurub ki, türklər rəbbin yer üzərindəki vuran qoludu və hər dəfə dünyanın nizamı pozulanda rəbbin vuran qolu türklər onu nizama qaytarır. Bəlkə də elə buna görə 13-ü yaradanla birbaşa təmasda olan, qalanları isə rəbbin onun çiyinlərinə qoyduğu xilaskarlıq, nizama dönüş missiyasını ləyaqətlə yerinə yetirən 124000 peyğənbərin tam əksəriyyəti türk xalqına mənsub olub. "Peyğənbər" sözünün ərəbcədən tərcümədə "göndərilən" və ya "göndərilmiş" mənasını verməsi onu deməyə əsas verir ki, rəbbin məhz bəşəriyyəti, insanlığı xilas məqsədilə göndərdiyi böyük dühalar elə rəbbin bəxş etdiyi qüdrətlə də bu missiyanı başa vururlar.

Bəlkə dünyanın ən xoşbəxt yaranmışlarından biriyəm ki, rəbbim həyatımın yetkinlik çağlarından HEYDƏR ƏLİYEV adlanan bu qeyri-adi qüdrətin fəaliyyətinin görünməyən tərəflərini görməyi, bütöv bir xalqın, mənsub olduğu türk dünyasının zorən məhkum edildiyi durumdan qurtulması yolundakı adi insanların çəkə bilməsi mümkün olmayan bir yükü çiyinlərinə almasına şahidlik etməyi mənə də nəsib etdi. Dünya tarixinin ən möhtəşəm səhifələrini yazmış qədim bir millətin yüz illərlə böyük bir imperiyanın müstəmləkəsinə çevrilməsinə dözməyən xalq, sanki qəfəsə salınmış aslan kimi nərildəyir, kükrəyir, qəfəsi dağıtmaq, azadlığa qovuşmaq istəyir, ancaq onun yollarını tapa, istəyinə çata bilmirdi. Məhz O bu yolun xəritəsini, tanrının bəxş etdiyi qeyri-adi fenomen bacarıqla çəkməyə, strategiyasını, taktiki gedişlərini zərgər dəqiqliyi ilə müəyyənləşdirməyə nail oldu və sonda yüz illər boyu davam edən ictibdaddan xalqını xilas etdi. Həm də təkcə mənsub olduğu xalqı istibdaddan xilas etmək deyil, ümumən türk dünyasının dirçəlişini təmin etmək, nizamdan çıxmış, labirintləşmiş indiki dünyanın yenidən nizama qayıtması kimi ümumbəşəri bir missiyanın daşıyıcılarından olaraq yeni bir eranın bünövrəsini qoymaq kimi tarixi missiyanı ləyaqətlə gerçəkləşdirməyə müvəffəq oldu.

Bu yazımda hər kəsə məlum olan bəzi tarixi məqamlara xronoloji ardıcıllıqla toxunmaqla yanaşı, indiyə kimi çoxlarına məlum olmayan bir sıra məqamlarla da hörmətli oxucuları tanış etmək istərdim. Çünki bu həqiqətlər itib-batmamalı, gerçəklər həm bu günki, həm də gələcək nəsillərə agah olmalıdır. Əslində HEYDƏR ƏLİYEV zirvəsinə az da olsa yaxınlaşmaq, onu dərk edə bilmək üçün bu tarixi faktlar hər kəsin gerçəkləri bilmək və anlamaq yoluna, qismən də olsa, işıq saça bilər.

Hər bir yaranmış kimi sadə bir ailədə doğulub boya-başa çatmışdı. Amma hər kəs kimi sadə bir ömür yaşamaq istəmədi. Hələ 16 yaşında ikən ucqar bir kənd məktəbində müəllim kimi fəaliyyətə başlayan, az müddətdə istedadı, fədakarlığı ilə diqqətləri özünə cəlb edən, qeyri-adi istedadına laqeyd qala bilməyən nəhəng bir imperiyanın başbilənləri tərəfindən sovetlər birliyinin ən yüksək pillələrinə qədər yüksələn, lakin qalxdığı hər pillədə "ittifaq" adlanan qanlı bir imperiyadan millətinin, xalqının, parçalanaraq azadlıqları əlindən alınmış türk dilli soydaşlarının xilası yolunda zərgər dəqiqliyi ilə hesablanan "ilmələr" vurmaqla istibdadın sonunu yaxınlaşdırırdı. Real tarixi faktlarla tanış olduqca gənc yaşlarında xüsusi xidmət orqanının zabiti kimi bütün varlığını bürüyən milli duyğularının təcəssüm etdiyini görməmək mümkün deyil. Bəzi məqamlarda karyerasını təhlükə altına atmaq bahasına olsa belə xalqının, təmsil etdiyi millətin adına xələl gətirə biləcək məqamlarda qətiyyətli və düşünülmüş addımlar atan HEYDƏR ƏLİYEV, əsas məqsədinə çatmaq - imperiyanın ən yüksək məqamlarında təmsil olunmaq, onun siyasi mətbəxini dəqiqliyinə qədər öyrənmək, dünyada baş verən proseslərə daha mükəmməl vaqif olmaq, sonunda xalqını bu istibdaddan azad etmək üçün Kommunist Partiyasının, Sovet Hakimiyyətinin etibarını qazanmaq yolunda səbr və dözümlə irəliləyirdi. 1967-ci ildə Azərbaycanlı xüsusi xidmət orqanı işçisi kimi ilk dəfə olaraq general-mayor rütbəsi verildi, ilk azərbaycanlı olaraq Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinə rəhbər təyin edildi. Cəmi iki il sonra - 1969-cu ilin iyulunda isə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi təyin edilərək Respublikaya rəhbərlik etməyə başladı.

Hələ SSRİ Dövlət Təhlükəsizliyi Komitəsində işlədiyi illərdə Sovet İttifaqı rəhbərliyi tərəfindən üç mindən artıq azərbaycanlı "vətən xaini"nin siyahısının HEYDƏR ƏLİYEVə verilməsi, onların axtarılıb tapılması və cəzalandırılması haqqında tapşırıq alması arxiv sənədlərində də əksini tapır. Lakin millətini canından da çox cevən və xalqının adına ləkə gətirə biləcək bu sənədlərdən onu xilas etməyi qarşısına məqsəd qoyan gənc xüsusi xidmət orqanı işçisi, Mehdi Hüseynzadə başda olmaqla həmin siyahıda olan neçə-neçə qəhrəman haqqında faktlar toplayıb, siyahının doğru tərtib edilmədiyinə sovet rəhbərliyini inandırır. Nəticədə "vətən xaini" adı ilə damğalanan həmin üç min nəfəri və mənsub olduğu xalqı bu addan xilas edir.

Sonradan məhz Mehdi Hüseynzadə haqqında məşhur "Uzaq sahillərdə"romanının yazılması, eyniadlı filmin çəkilməsi, Bakının mərkəzində qəhramanın əzəmətli heykəlinin ucaldılması da birbaşa gənc DTK əməkdaşı HEYDƏR ƏLİYEVin təşəbbüsü və təşkilatçılığı ilə reallaşmışdır.

Sovet dövründə Azərbaycan gənclərinin hərbi xidmət zamanı gerçək silahlı qüvvələrdə deyil fəhlə batalyonlarında xidmətə göndərilməsi, hər məqamda Ermənistanın istək və arzularının reallaşmasına xidmət edən qərarların qəbul edilməsi, Azərbaycanda iri sənaye müəssisələrinin yaradılmaması, kənd təsərrüfatına və kənd əhalisinə diqqətin zəif olması, Azərbaycanın zəngin neft və qaz yataqlarının, eləcə də digər yeraltı sərvətlərinin talan edilməsi, baş qaldıran azərbaycanlı milli mücahidlərin dərhal məhv edilməsi respublikada yeni reallıqlara uyğun dəyişik milli mücadilə formasının yaradılması zərurəti doğurmuşdu. Xüsusi vurğulamaq lazımdır ki, 1941-45-ci illərdə faşizmə qarşı savaşda bütün Sovet respublikaları arasında ən böyük fədakarlıq göstərən Sovet Azərbaycanının bu əməyinin qiymətləndirilməməsi də Sovetlər Birliyinin, Kremlin anti-türk siyasi xəttinin bariz göstəricilərindən idi. 1948-51-ci illərdə Ermənistandan 200 minə yaxın azərbaycanlının zorla ata-baba yurdlarından çıxarılaraq Azərbaycanın ayrı-ayrı bölgələrində məskunlaşdırılması isə xalqımızın faşizmə qarşı savaşda göstərdiyi anoloqu olmayan tarixi xidmətlərinə verilən dırnaqarası "mükafat" idi.

Azərbaycanda milli mücadilə, azadlıq uğrunda savaş davam etsə də, 1950-ci, 1960-cı illərdə bir sıra mücahid hərakatları formalaşsa da, hələ də tam yetkin, təşkilatlanmış mübarizə forması yaradılmadığından bu hərakatlar da Sovet DTK-sının amansız hücumları ilə yatırılırdı.1957-ci il mayın 28-də Qız Qalasına Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını sancan, o zaman Azərbaycan Dövlət Teatr İnstitutunun rejissorluq fakültəsini bitirmiş, bir müddət Azərbaycan Dövlət Opera və Balet Teatrında rejissor işləmiş, sonradan Sovet rejiminə qarşı mübarizənin önündə gedən Cahid Hilaloğlunun başçılığı ilə gerçəkləşən mücahidlər hərəkatını xatırlatmaq kifayətdir ki, həmin dövrdə imperiyanın qəddar anti-türk siyasətinə xalqımızın müqaviməti haqqında təsəvvürümüz yaransın. Ən diqqətçəkən məqam isə odur ki, 1957-ci ildə həbs edilən, rusiyanın soyuq sibir meşələrində illərlə olmazın əzablarını çəkən Cahid Hilaloğlu, məhz HEYDƏR ƏLİYEVin sayəsində vaxtından əvvəl sürgündən azad edilmiş, 1969-cu ilin iyulunda HEYDƏR ƏLİYEV Azərbaycana rəhbər təyin edildikdən sonra C.Cabbarlı adına İrəvan Dövlət Dram Teatrında, 1971-ci ildən İncəsənət İnstitutunun Tədris Teatrında, sonradan isə ömrünün axırına kimi doğulduğu Ağdam rayonundakı Dövlət Dram Teatrında baş rejissor kimi fəaliyyət göstərmişdir. Sovet DTK-sının siyahısında ən arzuolunmaz millətçi mücahidlərdən biri kimi qeyd olunan bu insanın məhz HEYDƏR ƏLİYEVin əli ilə normal həyata dönə bilməsi faktdır və bunu Cahid Hilaloğlunun yaxınları da təsdiq edə bilərlər.

Nəhayət, 1969-cu ildən başlayaraq bütün plansız, pərakəndə milli mücadiləyə son qoyuldu və məhz HEYDƏR ƏLİYEV milli ruhun artırılması istiqamətində dövlət səviyyəsində fundamental tədbirlərin həyata keçirilməsində şəxsən təşəbbüs göstərdi. Xüsusən "Nəsimi", "Dəli Kür", "Dədə Qorqud", "Babək", "Nizami" , "Axırıncı aşırım" və s. kimi milli ruhlu filmlərin çəkilişinə birbaşa şəxsən göstərişlər verməsi, "Ozan", "Bayatı", "Bulaq", "Savalan" və digər milli ruh aşılayan verilişlərin dövlət televiziya və radio efirlərindən cəmiyyətə təqdim edilməsi, teatr səhnələrində milli ruhlu tamaşalara geniş yer verilməsi, Azərbaycan dilinin qorunması və inkişafı ilə bağlı atılan addımlar,Yazıçılar İttifaqında on illər qadağa qoyulmuş Cənubi Azərbaycan mövzusunun önə çəkilməsi, Azərbaycan Yazıçılar İttifaqında Cənubi Azərbaycan Ədəbiyyatı Katibliyinin yaradılması və digər məqamlar Azərbaycan xalqının milli ruhunun qaldırılmasına yönəlik dövlət səviyyəsində görülən işlərin yalnız bir qismidir. 1958-ci ildə Baş redaktoru olduğu "Şəki fəhləsi" qəzetində B.Vahabzadənin "Gülüstan" poemasını çap etdiyinə görə cəzalandırılan, təqiblərə məruz qalan Məhiyəddin Abbasova 1971-ci ildə Azərbaycan SSR Əməkdar Jurnalisti adının verilməsi, 1968-ci ildə "Tökülən yarpaqlar" kitabında dərc olunan "Latın dili" şeirinə görə ev dustağı edilmiş B.Vahabzadənin bu dustaqlıqdan vaxtından əvvəl azad edilməsi və 1974-cü ildə şairin "Dan yeri" kitabında həmin şeirin yenidən çap olunması, bu kitaba görə B.Vahabzadənin SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Oktyabr İnqilabı ordeni alması, eləcə də 1968-ci ildə Cənubi Azərbaycan şairi M.Şəhriyarın "Heydərbabaya salam" şeirini televiziyada səsləndirdiyinə görə təqib olunaraq SSRİ DTK-sı tərəfindən həbs olunan Rüstəm Əliyevin məhz Heydər Əliyevin israrlı xahişləri ilə azad edilməsi, on illər boyu "pantürkist" damğası ilə antisovet yazar kimi təqdim edilən Hüseyn Cavid, Mikayıl Müşfiq kimi qüdrətli qələm adamlarının üzərindən bu ləkənin götürülməsi, onlara abidələrin ucaldılması, H.Cavidin cəsədinin qalıqlarının sibir çöllərindən tapılıb Azərbaycana gətirilməsi, milli musiqi mədəniyyətimizin dünyada təbliğini gücləndirmək məqsədilə Rəşid Behbudov, Zeynəb Xanlarova, Lütfiyar İmanov və digər müqtədir sənət adamlarına SSRİ-nin ən ali mükafatlarının verilməsi, milli ruhlu şair və yazıçıların SSRİ-nin yüksək dəyərli orden, medallarıilə təltif edilməsi, bir qisminə Sosialist Əməyi Qəhramanı adının verilməsi, bununla həmin insanların toxuulmazlığının təmin edilməsi,70-ci illərdə M.Şəhriyarın şeirlərindən ibarət kitabın Xəlil Rza Ulutürkün tərtibatı əsasında kütləvi tirajla çap olunması, X.R.Ulutürkün, Vilayət Rüstəmzadənin, Anarın, Asəf Kərimovun, Əbülfəız Əliyevin (Elçibəyin) və onlarla digər mücahidlərin Sovet məhbəslərindən xilas edilməsi, sadalamadığımız saysız-hesabsız digər bu kimi faktlar HEYDƏR ƏLİYEVin, xalqın milli ruhunun artırılmasına dövlət səviyyəsində etdiyi tarixi xidmətlərin yalnız az bir hissəsidir.

1969-cu ilin iyul ayında hakimiyyətə gələn HEYDƏR ƏLİYEV bundan cəmi dörd ay sonra, həmin ilin noyabr ayında, o zaman millətçi şair kimi SSRİ DTK tərəfindən təqib edilərək ev dustağı olan Bəxtiyar Vahabzadəni və şairin ən yaxın dostu, həmin dövrdə elmi kəşfi ilə dünyanın diqqət mərkəzində olan Xudu Məmmədovu qəbul edir. Tam məxvi şəraitdə saatlarla davam edən görüşün detalları haqqında danışmaq, təbii ki, mümkün deyil. Lakin həmin tarixi görüşdən şəxsən mənə on illər bundan əvvəl məlum olan iki məqamı diqqətə çatdırmaq kifayətdir ki, bu görüşün əsas qayəsi anlaşılsın. Bunlardan birincisi Bəxtiyar Vahabzadənin odlu-alovlu millətçi fikirlərini sonadək diqqətlə dinləyən HEYDƏR ƏLİYEV ona, Sovet Hökumətinə qarşı belə danışmaqdansa, ağıllı-başlı təşkilatlanmış elə hərakat yaratmaq tövsiyə etməsidir ki, həmin təşkilatla xalqın milli ruhunu qaldırmaq mümkün olsun, yoxsa belə adda-budda hay-küylü çıxışlarla SSRİ kimi nəhəng dövlətdən qurtulmağın mümkün olmayacağını qeyd edir. İkinci, ən maraqlı məqam isə həmin görüşdə HEYDƏR ƏLİYEVin "Siz elə hərəkət edin ki, bunun milli ruhun qaldırılmasına xeyri dəysin, həm də mən sizləri qoruya bilim. Çünki yaxın gələcəkdə bu xalqın həm milli ruha, millətçi əhval-ruhiyyəyə, həm də sizlər kimi aparıcı simalara ehtiyacı olacaq" tövsiyyəsidir. Daha, ən inanılmaz məqam isə ondan ibarətdir ki, HEYDƏR ƏLİYEV həmin görüşdə SSRİ-nin çökəcəyi dövrü də qeyd edir: 1985-1990-cı illər! Tarixin sonrakı dönəmi HEYDƏR ƏLİYEVİN hadisələri, baş verən prosesləri nə qədər müdrikliklə təhlil etdiyini və necə zərgər dəqiqliyi ilə gələcək haqqında proqnoz verdiyini ortaya qoymuş oldu. Bu tarixi görüşdən iki gün sonra Xudu Məmmədovun evində Xudu Məmmədov, Bəxtiyar Vahabzadə və həmin dövrdə gənc şərqşünas kimi tanınan, millətçi çıxışları ilə diqqət mərkəzində olan, Bakı Dövlət Universitetinin müəllimi, Xudu Məmmədovun qonşusu Əbülfəz Əliyev görüşürlər (Bəlkə də elə bu və digər məqamlarla bağlı idi ki, Ə.Elçibəy Xudu Məmmədovu mənəvi atası kimi qəbul edirdi və onu "dədəm" adlandırırdı. Xudu Məmmədova həsr etdiyi, vəfatının 40 günlüyündə Azadlıq meydanında səsləndirdiyi üç bəndlik şerində də məhz belə qeyd edir: "Qara qaplanların qalxdı, çilədi, Dədəm, gözün aydın, ay gözün aydın, Övladların Vətən dedi, mələdi, Dədəm, gözün aydın, ay gözün aydın!"-T.N.).

Bu görüşdə Azərbaycanın müstəqilliyə doğru addımlarını qətiləşdirən, təşkilatlanmış gizli fəaliyyət göstərən qurum kimi xalqı milli mücadiləyə səfərbər edən "ÜÇLƏR HƏRAKATI" yaradılır və Azərbaycanın müqtədir tarixi simaları bu hərakat ətrafında birləşirlər. Bu barədə ilk dəfə 1976-ci ildə alovlu inqlabçı mücahid şair Xəlil Rza Ulutürkdən, sonrakı illərdə Bəxtiyar Vahabzadədən, Xudu Məmmədovdan və ən son dövrdə isə Əbülfəz Əliyevdən (Elçibəydən) şəxsən eşitmişəm. Lakin bunlar haqqında danışmaq istəyimi 1991-ci və 1997-ci illərdə HEYDƏR ƏLİYEVə bildirəndə buna qəti etiraz edərək, bunun gənc, yenicə müstəqilliyini əldə etmiş bir ölkəyə zərər vura biləcəyini bildirir və 2020-ci ildən sonra bu haqda danışmağı tövsiyə edirdi. Bütün yaşadığı dövrdə gələcək haqqında zərgər dəqiqliyi ilə proqnozlar verən HEYDƏR ƏLİYEVin bu məqamda da nə qədər dəqiq hesablamalar apardığının şahidi olduq: HEYDƏR ƏLİYEV sanki dəqiq hesablamalarla, ola bilsin ki, ilahi qüdrətin ona bəxş etdiyi fövqəlbəşər qabiliyyətlə məhz 2020-ci ildə ermənilər üzərində tarixi zəfərin qazanılacağını bilirdi və yalnız bu zəfərdən sonra məxfi qalan bəzi sirlərin açıqlanmasını tövsiyə edirdi.

Həmin dövrdə HEYDƏR ƏLİYEVin tarixi xidmətləri sırasında Xəzər dənizindəki karbohidrogen ehtiyatlarının və respublika ərazisindəki əlvan metallurgiya yataqlarının qorunması ilə bağlı atdığı addımlar da diqqəti çəkir. Neftin, qazın, eləcə də əlvan metallurgiyanın istehsalı və satışı birbaşa ittifaq tabeliyində olduğuna və bu ehtiyatlardan əldə edilən gəlirin birbaşa ittifaq büdcəsinə ödənildiyinə görə HEYDƏR ƏLİYEV bu xəzinənin tükənməməsi, müstəqil Azərbaycan üçün qorunub saxlanması yollarını axtarır və tapır. Karbohidrogen yataqlarının kəşfi üzrə tanınmış mütəxəssis Xoşbəxt Yusifzadənin və sovet dövründə əlvan metallurgiya üzrə ekspedisiya qrupuna rəhbərlik etmiş Telman Bəşirovun dediklərindən birmənalı aydın olur ki, HEYDƏR ƏLİYEV həmin illərdə kəşf edilən bütün yataqları şəxsi nəzarətinə götürmüş və ittifaq rəhbərliyindən gizlin saxlanmasını təmin etmişdir.

Bütün bunların böyük bir qismindən imperiyanın mərkəzində, Kremldə xəbərdar olmaya bilməzdilər. Üstəgəl o dövrdə ittifaqda çox geniş yayılmış "TT-KAR", sonradan Sovet DTK- nın "TT-RAK" adlandırdığı müəmmalı söz-söhbət! Bu gün SSRİ DTK-nın və Sov.İKP MK-nın arxivlərinə əlimiz çatmasa da, hələ o dövrdə ittifaqı bürümüş bu söz-söhbət haqqında bəzi məlumatlar əldə etmək mümkün oldu. TT- rus dilində olub "TÜRK ÜÇLÜYÜ" mənasını verən "Turetskaya Troyka", KAR(sonradan RAK-T.N.) isə Kunayev, Aliyev, Raşidov soyadlarının baş hərfləri idi. SSRİ-də bir vaxtlar danışılması belə qadağan olunan türkçülük ideologiyasının, türk tarixinin 70-ci illərdə ittifaqda açıq ideoloji xəttə çevrilməsi, Türkologiya institutunun, "Sovetskaya Turkologiya" jurnalının yaradılması, Olcas Süleymanovun "AZ İ YA"kitabının işıq üzü görməsi, bir sıra tarixçi alimlərin on illər boyu qadağan olunmuş Türk tarixinə obyektiv baxışla müraciət etməsi, Cənubi Azərbaycan ədəbiyyatının, xüsusən, M.H. Şəhriyar poeziyasının, inqilabi ruhlu şeirlərinin azad şəkildə yayılması və digər amillər həmin dövrdə bütövlükdə imperiyada türk dirçəlişinə gətirib çıxarmalı idi ki, bu da ən ciddi siyasi məqsədlərin reallaşmasına yönəlik uğurlu tarixi missiya idi. 1970-1980-ci illərdə SSRİ-nin ən nəhəng layihəsi olan Baykal-Amur Magistralının (BAM-T.N.) tikindisinin 1982-ci ildən dayandırılması məsələsi gündəmə gələndə də Sovet rəhbərliyində məhz HEYDƏR ƏLİYEV buna qarşı çıxaraq, BAM-ın tikintisinə rəhbərliyin məsuliyyətini üzərinə götürür və uğurla bu makistralın tikindisini başa çatdırır. Bu barədə soruşanda HEYDƏR ƏLİYEV gülümsəyərək deyərdi: "Gedin, xəritəyə diqqətlə baxın, BAM bütövlükdə türk xalqalarının yaşadığı əraziləri əhatə edir və bu magistral burda yaşayan türk xalqları üçün həyati əhəmiyyətə malik qan damarı rolunu oynayır." Düşünürəm ki, şərhə ehtiyac yoxdu...

Qəribədir ki, SSRİ-nin birinci və sonuncu Prezidenti, şovinist Mixail Qorbaçov imperiyanın başına keçdikdən sonra bütün hücumlar məhz "Turetskaya Troyka" adlandırılan bu üç simaya yönəlmişdi. Onları təkcə vəzifələrindən uzaqlaşdırmaqla kifayətlənməyən Qorbaçov hakimiyyəti, ilk qanlı hücumlarını da müxtəlif formalarda bu üç şəxsiyyətin mənsub olduqları xalqlara qarşı yönləndirdi. İlk dəfə Qazaxıstanda qeyri millətin nümayəndəsinin respublikaya rəhbər təyin edilməsinə etiraz edən xalqın qanı axıdıldı. Ardınca Azərbaycanda Qarabağ, Özbəkistanda Oş problemləri süni şəkildə yaradıldı və idarə olunaraq qanlı qırğınlara gətirilib çıxarıldı. Əvvəl Rəşidovu, ardınca Kunayevi sıradan çıxaran Kreml rəhbərliyi sonda HEYDƏR ƏLİYEVin zərərsizləşdirilməsi planını hazırladı. Eyni zamanda, Azərbaycanda gedən milli azadlıq mücadiləsindən xəbərdar olan Moskva bu xalqı yenidən yerində oturtmağın ssenarisini də hazırlamalı idi. Ən yaxşı ssenari isə, hələ 1923-cü ildə gələcəyə hesablanaraq Azərbaycanın bətnində qarayara kimi yaratdıqları Dağlıq Qarabağ Muxtar Vilayətinin erməni qul-beçələrini hərəkətə gətirməkdən ibarət ola bilərdi. Lakin bunun üçün də, ilk növbədə HEYDƏR ƏLİYEV adlı əzəmətli dağ aradan götürülməli idi...

## Dördtərəfli hücumlara rəşadətlə sinə gərən əzəmətli dağ simvolu!

Həm xaricdəki erməni lobbisi, həm Sovetlər Birliyində yaşayan ermənilər əhatələrinə aldıqları Mixail Qorbaçov vasitəsilə ötən əsrin əvvəllərindən cızdıqları mənfur "yol xəritəsi" ni reallaşdırmaq üçün HEYDƏR ƏLİYEV maneəsini aradan götürməyi ilk taktiki gediş kimi planlaşdırdılar. Təbii ki, bütün parametrlər üzrə HEYDƏR ƏLİYEVdən çox-çox zəif olan M.Qorbaçov da bunu istəyirdi. Beləliklə Qorbaçov-erməni birliyi sonda buna "nai oldu". Son iki sözü ona görə dırnaq arasına aldım ki, onlar (Qorbaçov-erməni birliyi-T.N.) buna nail olduqlarını zənn etdilər.

# Tariximizin HEYDƏR ƏLİYEV erası

Əvvəli Səh. 9

Amma anlaya bilmədilər ki, belə dühaları vəzifəsiz qoymaq onları etkisiz hala gətirmək demək deyil. Əksinə, atılan zərbənin hardan tuşlandığını yaxşı bilən fenomen şəxsiyyətlər zərbə vuranların məqsəd və arzularını bilirsə, bu arzunu ürəklərində qoymaq üçün özünün qarşıya qoyduğu məqsədinə nail olmağın yeni yollarını tapması və onu sonuna qədər qət etməsi şəksizdir. Yetər ki, Vətənə, mənsub olduğu Xalqa təmənnasız HEYDƏR ƏLİYEV sevgisi və Vətən, Xalq naminə ən ağır kötükləri müdrikliklə, böyük ustalıqla aşmaq qüdrəti olsun. Fiziki məhv etmək üçün M.Qorbaçovun göstərişi ilə planlaşdırılan, Sovet rejimində dəfələrlə tətbiq edilmiş insanlığa sığmayan üsulu da qeyri-adi ağlının, ilahi qüdrət tərəfindən bəxş edilmiş tükənməyən idrakının gücü ilə alt-üst etdi. Və...

Kremldə hazırlanan və artıq M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Ağambekyan tərəfindən Fransanın paytaxtı Parisdə ilk dəfə səslənən "Qarabağın Ermənistan tərkibinə verilməsi oyunu" na, hələ də onu fiziki məhv etmək üçün bədəninə yeridilmiş xüsusi mayenin ağrılarından qurtarmamış olduğu vaxtda, öz sağlamlığını və ailəsinin, övladlarının həyatının təhlükəsizliyini risq altında qoyaraq bu mənfur niyyətə qarşı ilk fəaliyyətə keçən də HEYDƏR ƏLİYEV oldu. 1987-ci il noyabr ayının 29-da ailənin yeganə oğul varisi, ruhunun, canının, qanının bir parçası olan, SSRİ DTK-sı tərəfindən təqib olunan İlham Əliyevin həyatını təhlükəyə atmaqdan belə çəkinməyən Vətəninə, Xalqına sevgi odu ilə alışıb-yanan bu böyük qüdrət daşıyıcısı onu xüsusi tapşırıqla Moskvadakı Ağdam kooperativinə (restorana-T.N.) göndərir. Həmin restoranın sahibi, bu gün də Moskvada yaşayan Ədalət bəyin dediyinə görə, gənc İlham Əliyev əvvəlcədən razılaşdırılmaqla ayrılmış otaqda əslən Yevlax şəhərindən olan, hamının Əlibaba kimi tanıdığı İsax Süleymanovla görüşür. Görüş ikisi arasında keçirilir və həmin günün sabahı İsax bəy Bakıya gəlir. İndilikdə əldə etdiyimiz məlumata görə, İsax bəy Bakı Dövlət Universitetinin o zamankı rektoru, tanınmış elm xadimi, Azərbaycan KP MK-nın o zamankı birinci katibi Kamran Bağırovun qardaşı Faiq Bağırzadə ilə, görkəmli alim, böyük ziyalı Xudu Məmmədovla görüşüb HEYDƏR ƏLİYEVin sifarişini onlara çatdırır. Sifarişin qısa məzmunu bundan ibarət olub: Ağambekyanın bəyanatı boşuna verilməyib. Kreml Qarabağı ermənilərə verməyə hazırlaşır. Tələbə və fəhlə hərəkatı yaradılsın, xalq müqavimətə hazırlaşsın, zəiflik göstərilsə ermənilər istəklərinə nail olacaqlar!

O dövrdə hadisələrin iştrakçılarının dediklərinə görə, məhz bu sifariş əsasında professor F.Bağırzadə Bakıda həm tələbə hərəkatının, həm də fəhlə hərəkatının təşkilatlanmasına start verir. Eyni zamanda professor X.Məmmədov dərhal Qarabağa, Ağdama gedir. Mənəvi qardaşı Zeynal Məmmədovla birlikdə Qarabağda müqavimət hərakatı formalasdırmağa başlanılır.

Sonrakı dövrlərdə hər zaman, hər bir kritik məqamda, ən ağır günlərdə daim Xalqı ilə bir yerdə olan HEYDƏR ƏLİYEVin ihdiyə kimi deyilməyən başqa bir tarixi xidməti haqqında da qısa bilgi vermək istərdim. 1989-cu ildə SSRİ Ali Sovetinin "Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə xüsusi komissiyası" yaradılmışdı. Komissiyaya məşhur ukraynalı yazıçı və tanınmış ictimai xadim Boris Oleynik sədr seçilmişdi (əslində təyin edilmişdi-T.N.). Komissiya Qarabağa gəlməli, yerdə hər iki xalqın nümayəndələri ilə görüşlər keçirməli, vəziyyətlə bağlı məlumat verməli, eyni zamanda Ali Sovetə Qərar layihəsi təqdim etməli idi. Yenə Kreml daxilindən HEYDƏR ƏLİYEVə xəbər çatdırılır ki, M.Qorbaçov komissiyanın sədri, yazıçı B.Oleyniki qəbul edib, ona ermənilərin istəklərini yerinə yetirmək barədə rəy yazmalarını və SSRİ Ali Sovetinə "Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR tərkibindən çıxarılıb Ermənistan SSR tərkibinə verilməsi" haqqında Qərar layihəsi təklif edilməsini tapşırıb. HEYDƏR ƏLİYEV yenə oğlunun həyatını təhlükə altına atmaqdan çəkinmir və artıq Ali Məktəbdəki işindən də kənarlaşdırılmış, addım-addım təqib olunan gənc İlham Əliyevin vasitəsilə, gizli olaraq B.Oleyniklə görüşə bilir. Bir neçə saat davam edən həmin görüşün nəticəsinin tarixi əhəmiyyətini anlamaq üçün B.Oleynikin Şuşa əhalisi ilə görüşdən sonra, az sayda adamlara gizlin pıçıldadığı iki cümləni demək kifayətdir: "Mən bura gəlməmişdən əvvəl Heydər Əliyeviçlə görüşmüşəm və o mənə həm tarixi, həm siyasi baxımdan bütün həqiqətləri danışıb. Azərbaycan xalqı narahat olmasın"... Bu bir tarixi həqiqətdir ki, komissiya Moskvaya döndükdən sonra B.Oleynik M.Qorbaçovun tapşırığını yerinə yetirməkdən qəti şəkildə imtina edir və nəticədə həmin məsələ növbəti SSRİ Xalq Deputatları Qurultayının gündəliyindən çıxarılır. Sonrakı dövrdə də bu məsələyə baxılmır və bu gün də SSRİ Ali Sovetinin arxivlərində baxılmamış məsələ kimi saxlanmaqdadır.

1990-cı il 20 Yanvar qətliamından sonra, artıq M.Qorbaçov hakimiyyətinin azğınlığına dözə bilməyib, xalqını açıq müdafiəyə keçmk məcburiyyətində qalan HEYDƏR ƏLİYEV Moskvanın mərkəzində, Kremlin beş addımlığında, Azərbaycan SSR-in Moskvadakı nümayəndəliyində, bu gün hər bir Azərbaycan övladının qürur hissi ilə xatırladığı məlum Bəyanatından sonra Bakıya gəlmək, bu ağır günlərdə xalqı ilə bir yerdə olmaq qərarını verdi. Gözlənilən o idi ki, qüdrətin dönüşünü səbrsizliklə gözləyən çarəsiz qalmış xalq onu ağuşuna alacaq. Təbii ki, xalq bunu istəyirdi. Lakin Moskvadan verilmiş göstərişlərə canla, başla əməl edən o zamankı hakimiyyət yetkililəri həm Kremlin istəyini reallaşdırmaqla ağalarına sadiq qul olduqlarını göstərmək, həm də HEYDƏR ƏLİYEVİN xalqına, xalqının da HEYDƏR ƏLİYEVə olan tükənməyən sevgini özlərinin hakimiyyəti üçün təhlükə hesab etdiklərindən bütün gücləri ilə müqavimət planlarını işə salmışdılar. Bu məqamda xatırlatmağı vacib hesab edirəm ki, hakimiyyətlə yanaşı guya xalqın içindən çıxmış hesab edilən Azərbaycan Xalq Cəbhəsinin rəhbərliyində də HEYDƏR ƏLİYEVə qarşı antipatiya olduğu ortaya çıxdı. Bunun səbəbləri və başlıca məqsədləri barədə bu yazıda geniş söhbət açmaq fikrində deyiləm (Çünki bu, ayrıca genişhəcmli bir yazının mövzusudur və zamanım qalarsa gələcəkdə bu barədə konkret faktlara söykənən, dəlillərə əsaslanan yazımı oxuculara təqdim edəcəyəm-T.N.) Ancaq indilikdə bir məqamı vurğulamaq istəyirəm. AXC-nin yaradılmasında xüsusi xidmətləri olan fəalların böyük əksəriyyəti təsis konfransında seçkili orqanlardan kənarda qalarkən, bunun səbəbini öyrənmək istədik. Çox sonralar aydın oldu ki, o zaman Azərbaycan KP MK-nın katibi olan Svetlana Qasımovanın da qatıldığı həmin konfransda, AXC-nin təşəbbüs qrupunda ciddi qəbul edilməyən, bəziləri hətta təşəbbüs qrupunda üzv olmayan bir qrupun idarə heyətinə seçilməsi birbaşa o dövrki DTK tərəfindən göndərilmiş adamlar olub. Ən qəribəsi odur ki, "Primakovun uşaqları" kimi tanınan həmin qrup az keçmədən AXC-yə faktiki rəhbərliyi ələ keçirməyi bacardılar ("Moskovsoye novosti" qəzeti, 16 noyabr 1997-ci il tarixli sayında, AXC-dəki həmin qrupun fəallarından olan Yusif Səmədoğlunun etiraflarını oxumağı hər kəsə tövsiyə edərdim...-T.N.). Sovet DTK-sı tərəfindən idarə olunan adamların çoxluq təşkil etdiyi bir qurumun qərarverici orqanının belə mövqe sərgiləməsi isə təbii idi.

Beləliklə, HEYDƏR ƏLİYEVə dörd tərəfdən - SSRİ rəhbərliyi, SSRİ-də və dünyada yaşayan erməni lobbisi, Azərbaycan hakimiyyəti və nəhayət özünü xalqın nümayəndəsi kimi qələmə verən Azərbaycan Xalq Cəbhəsinin bir qrup yetkililəri tərəfindən hücumlar edilirdi. Günbəgün bu hücumlar daha da kəskinləşirdi. Bilmirəm, dünyanın tarixində ikinci elə bir qüdrətli şəxsiyyəti kimsə göstərə bilərmi ki, dörd istiqamətdən, hamısı da çox yüksək səlahiyyətli qüvvələr tərəfindən üzərinə hücumlar edilsin, yalnız xalqına arxalanaraq bütün hücumları dəf edərək sonda misli görünməyən tarixi qələbəyə nail olsun?! Az-çox Azərbaycanın da, dünyanın da tarixindən xəbərdar olan bir qələm adamıyam və mən belə bir tarixi sima (Allah rəsulları kimi göndərilən tanrı elçiləri istisna olmaqla-T.N.) tanıya bilmirəm ki, onu haqqında yazdığım bu fövqəladə qüdrət sahibi ilə müqayisə edə bilim.

Yuxarıda qeyd etdiyim kimi, allahın ən böyük lütfüdür ki, bu fenomen düha ilə dəfələrlə görüşmək, bəzən saatlarla söhbət etmək kimi hər kəsin arzusunda olduğu xoşbəxtlik mənə də nəsib olub. 1990-cı ildən başlayaraq qismət olan hər görüş haqqında da çox yazmaq olar. Ancaq HEYDƏR ƏLİYEVin Vətən, Xalq sevgisinin parlaq təzahürü olan daha bir-iki faktı oxucularıma təqdim etmədən yazıma son verə bilmirəm. Hələ 1990-cı ilin sonları idi. SSRİ dağılmamışdı, Azərbaycan müstəqil dövlət deyildi. Bir gün yaşadığım Ağdam rayonunun dəmiryol stansiyasının rəisi Rəhbər adlı şəxs, rayonda öz təşəbbüsümüzlə yaratdığımız müdafiə qərargahına gəlib, HEYDƏR ƏLİYEVin dəmiryol rabitə xətti ilə zəng vurub, məni təcili Naxçıvana çağırdığını dedi. Sabahı artıq Naxçıvanda idim. Xeyli söhbətdən sonra məndən Qarabağda, adamlarda silah olub-olmamasını soruşdu. Olmadığnı, olanların da quş tüfəngi olduğunu, onu da gizlin istifadə etdiyimizi bildirdim. Bu hadisənin günümüzdə də şahidləri var. Aydın oldu ki, dünya şöhrətli bu qüdrətli şəxsiyyət gərgin fəaliyyəti içində vaxt tapıb İrana adamlar göndərib, ordan bir neçə avtomat və iki pulemyot keçirib gətirə biliblər Naxçıvana. HEYDƏR ƏLİYEV Naxçıvanın özündə də vəziyyətin gərgin olmasına rəğmən həmin silahları, İranda necə qablaşdırılmışdısa, eləcə də mənimlə və özünün xüsusi adamı ilə Naxçıvan-Gəncə təyyarə reysi ilə Qarabağa göndərdi. Bildirdi ki, uşaqlara tapşırmışam, yenə İrandan, Türkiyədən əldə etməyə çalışacaqlar. Burda da ehtiyac var, amma orda, Qarabağda daha çox ehtiyac var silaha. Bir il sonra,1991-ci ilin sonunda isə Türkiyə vasitəsilə alınmış külli miqdarda avtomat silahdan 600 ədəd yenə yenə Ağdama, Milli Qəhramanlar Şirin Mirzəyevin və Allahverdi Bağırovun könüllü müdafiə dəstələrinə göndərdi. Bunlıarı ona görə yazdım ki, o zaman Azərbaycanın, o cümlədən Qarabağın taleyinə məsuliyyət daşıyan hakimiyyət mənsubları, xalqın əlində olan quş tüfənglərini belə yığdığı, evindən silah çıxan adamlara cinayət işi qaldırdığl, guya xalqın seçdiyi AXC yetkililərinin isə bu fakta seyçiliklə yanaşdığı, yeri gələndə silahdan istifadə edənlərin AXC sıralarından kənarlaşdırdıqları bir zamanda, dörd tərəfdən edilən hücumlara sinə gərməklə yanaşı, rəhbərlik etdiyi Naxçıvan Respublikasının özündə silaha nə qədər ehtiyac olduğuna baxmayaraq, hər cür təhlükəni göz önünə alıb da Qarabağın könüllü savaşçılarını silahlandırmağa çalışmaq yalnız HEYDƏR ƏLİYEV kimi ilahi qüdrətdən pay almış simaların bacardığı iş ola bilər.

Yazıma, hələ 2001-ci ilin noyabr ayında, ULU ÖNDƏR HEYDƏR ƏLİYEVin sağlığında, o zaman Baş redaktoru olduğum "XXI ƏSR" qəzetində dərc etdiyim böyük həcmli "Hetydər Əliyev və Azərbaycan" adlı yazımdan bir sitatla son vermək istəyirəm: "...Bir sözlə, Heydər Əliyev Azərbaycanın və türk xalqlarının tarixində elə nəhəng dönüşə nail oldu ki, yüz illər, min illər sonra da bu ad və soyad ehtiramla xatırlanacaq. Onunla bərabər, eyni dövrdə yaşayan hər kəs bu həmzamanlıqdan qürur hissi keçirəcək. Yazıq o kəslərə ki, onlar Heydər Əliyev zirvəsini dərk edə və bu zirvənin qüdrətini dərk etməyə özündə güc tapa bilmirlər. Beləlri ona görə yazıqdırlar ki, onlar ya unudulacaqlar, ya da xalqın qan yaddaşında nifrətlə xatırlanacaqlar. Bundan da böyük yazıqlıq, bədbəxtlik ola bilərmi?.."

***Təhmasib Novruzov,***
***Azadlıq Hərəkatçıları Birliyinin sədri,***
***yazıçı-publisist***

SİYASİ RAKURS+AKTUAL

# Dəmir yumruq yenidən düşmənin başına enmək üzrədir!

Artıq bir neçə gündür ki, Ermənistandakı revanşist qüvvələr müxtəlif vasitələrlə, eləcə də əllərində olan maliyyə resurslarından istifadə etməklə qiyam və çevriliş məqsədlərini reallaşdırmağa çalışırlar. Məqsəd isə bəllidir - Paşinyanı devirməklə rəsmi Bakının İrəvana irəli sürdüyü 5 təklifdən ibarət bəndlər çərçivəsində sülh müqaviləsini imzalamamaq, Türkiyə ilə münasibətləri normallaşdırmamaq və əslində, nə qədər qəribə görünsə də, Qarabağda yeni müharibəyə başlamaq (?!) Əslində, revanşist qüvvələrin bu dərəcədə aşırı axmaq və izafi sadomazoxist olduqlarını son vaxtlara qədər elə də ciddi təsəvvür etmək olmurdu, lakin son proseslər göstərir ki, 44 günlük müharibədən sonra iqtisadiyyatı çökmüş, ordusu məhv olmuş bir ölkə siyasilərinin, daha dəqiq desək müxalifətçilərinin yenidən müharibə ab-havası ilə ortalığa düşmələri onlar haqqında yalnız bu cür düşünməyə vadar edir. Və maraqlısı da budur ki, tərəfdarları az olsa da, ermənilərin bir qismi hələ də həmin uğursuz düşüncələrində qalmaqda davam edirlər və onlar revanşistlərin küçə yürüşlərinə, mitinqlərinə, yol bağlamaq aksiyalarına qatılırlar. Onların arasında gənclər də az deyil...

**Ermənistandakı revanşçı qüvvələr ölkəni və kütləni ölümün ağzına doğru sürükləyirlər**



### Çünki yaxşı bilirlər ki, rəsmi Bakının hərbi gücü və qüdrəti qarşısında tab gətirməyə heç bir vasitələri, imkanları yoxdur

Bu gün Ermənistandakı mövcud situasiyanı yaradanların əsasında dayanan sabiq prezidentlər - Robert Koçaryan və Serj Sarqsyan, eləcə də Nikol Paşinyan hökumətindən istefaya getmiş Milli Təhlükəsilik Xidmətinin sabiq direktoru Artur Vanetsyan və daşnakların deputatı İşxan Saqatelyan faktiki olaraq Ermənistanı ölümün, məhvin, birdəfəlik xəritədən silinməyin ağzına doğru sürükləyirlər və onlar gəncləri yenidən ölümün ağuşuna atmağa nə qədər hazır olduqlarını açıq şəkildə göstərirlər. Çünki yaxşı bilirlər ki, rəsmi Bakının hərbi gücü və qüdrəti qarşısında tab gətirməyə heç bir vasitələri, imkanları yoxdur. Onların məqsədləri yenidən klan olaraq hakimiyyətə yiyələnmək və bunun üçün ölkəni və ölkə gənclərini məhv edib, qanları üzərində varlanmaq. Onlara kimsə, haradansa sifariş verə bilər, hətta silah və maliyyə yardımları da göstərilə bilər, fəqət bütün bunlar uzağı bir neçə gün davam edə bilər. Belə ki, revanşistlər yığnağı bir reallığı da unudurlar ki, onlar qisasçılıq hissləri ilə, vəziyyəti gərginləşdirməklə, əslində, bütöv bir ölkəni birdəfəlik məhv etməyin astanasında dayanıblar. Çünki Azərbaycan heç nə itirmir, əksinə, Dəmir yumruq artıq havadadır və hər an enməyə hazır vəziyyətdədir!

### Qərb-Rusiya qarşıdurması Ermənistan kontekstində

Biz bu məsələdə daha bir faktora da toxuna bilərik. Əgər bu gün Ukraynada Rusiya-Qərb qarşıdurması davam edirsə, həmin qarşıdurma yalnız o ərazilərdə deyil, dünyanın bir sıra nöqtələrində müxtəlif vasitələrlə aparılır. Misal üçün, nəzərə alsaq ki, Ermənistandakı revanşçı qüvvələr daha çox Rusiyaya bağlı dəstələrdirlər və hazırda həmin ölkənin rəhbərliyində oturan iqtidar təmsilçiləri Qərbin cinahında yer alırlar bu zaman oradakı proseslərin də Qərb-Rusiya qarşıdurması kontekstində getdiyini qeyd edə bilərik. Ancaq məsələ heç onda da deyil, məsələ ondadır ki, Nikol Paşinyan hakimiyyəti revanşist müxalifətlə birdəfəlik, güc dili ilə danışmağa ehtiyat edir və görünür, onun da hansısa məqamlarda çəkindiyi amillər mövcuddur. Çünki müxtəlif vasitələrlə böyüyən etirazlar dalğası açıq-aydın qiyam və çevriliş mənzərəsini təsəvvürlərdə canlandırır və bu baş verərsə, yuxarıda da qeyd etdiyimiz kimi, uduzan tərəf bilavasitə Ermənistan olacaq. Yəni "Artsax" deyilən ifadə onların sonlarını gətirəcək!

### Nikol Paşinyan bağlı qapılar arxasında təhlükəsizlik şurasının iclasını keçirərkən, revanşistlər parlament binasını ələ keçirməyə çalışırlar

Yeri gəlmişkən, yazı çapa hazırlanarkən artıq revanşist qüvvələrin Ermənistan parlamentini ələ keçirmək cəhdləri barədə də məlumatlar yayılmağa başladı. Üstəlik, bu, o zaman baş verdi ki, Nikol Paşinyan hökuməti bağlı qapılar arxasında təhlükəsizlik şurasının iclasını keçirirdi. Görünür, bu iclasda əsas müzakirə predmeti etirazçılara qarşı yalnız polisin deyil, həm də ordunun çıxarılıb-çıxarılmaması müzakirə olunur. Belə ki, hakimiyyət uğrunda mübarizə aparan revanşist qüvvələrin hərəkətləri artıq hakim partiyanın sıralarında ciddi narazılıq doğurur. Ermənistan parlamentinin binası qarşısında Nikol Paşinyana dəstək aksiyası keçirən hakim "Vətəndaş sazişi" partiyasının üzvlərindən biri keçmiş Qarabağ klanının hakimiyyətə qayıtmaması üçün ölkə rəhbərliyinin radikal tədbirlər görməsinin, "polad çəkic"dən istifadə etməsinin zəruri olduğunu tələb edib.

### Bu gün həmin qaniçənlərə dəstək göstərən ermənilərə sadəcə və ən yumşaq şəkildə AXMAQ adı daha çox yaraşır

Belə radikal addımlar atmayan hakimiyyət müəyyən dərəcədə, yollarda, qəsəbə və şəhərlərdə hərəkəti dayandırmağa çalışan etirazçıların piketlərini dağıtmaqla, ictimai asayişi pozanları polis məntəqələrinə göndərməklə cavab verir. Amma nə zamana qədər belə davam edəcəyini də kimsə deyə bilmir. Çünki "xalq" adlandırılan revanşist kütlə eyforik həddə çatmaqla istər özlərini, istərsə də ölkəni közə atdıqlarının hələlik (!) fərqinə varmırlar. Hələlik Robert Koçaryan və s. sabiqlər İrəvanın Fransa meydanına gələrək selfilər çəkdirir, özlərini "xalqın dəstəkçiləri", yaxud "mələk" kimi göstərirlər, halbuki məhz onlar onilliklər boyunca bu xalqın qanını neçə deyərlər, cılxa-cılxa içiblər. Beləliklə, bu gün həmin qaniçənlərə dəstək göstərən ermənilərə sadəcə və ən yumşaq şəkildə AXMAQ adı daha çox yaraşır.

Azərbaycanın isə qarşıda çox işi var və bu gün azad olunmuş ərazilərimizdə bərpa işləri həyata keçirilir, üstəlik daha iti layihələrin reallaşdırılması prosesi sürətlə davam etməkdədir. Belə olan məqamda rəsmi Bakının maraqlarına mane olmağa cəhd edən erməni siyasi buqələmunlarının başlarının əzilməsi üçün isə bir an kifayətdir. Həmin anı isə realizə edəcək bir qüvvə mövcuddur - DƏMİR YUMRUQ!

*Rövşən RƏSULOV*

---



Elçin Bayramlı

# Yaltaqlıq elmi

**"Milli psixoloji xəstəliklərimiz" silsiləsindən 1-ci yazım (yalançılıq sindromu- https://sia.az/az/news/articles/950142.html) oxucularımız tərəfindən maraqla qarşılanıb. Zəmətkeş xalqımızın nümayəndələri açıq etirafda bulunublar ki, bəli, biz beləyik. Hətta bir radikal vətəndaşımız şərhdə yazıb ki, guya mən bunun səbəblərini bilirəm, amma açıq yaza bilmirəm...**

Nə isə, sözüm onda deyil, bu dəfəki mövzumuz birincidən heç də geri qalmayan ağır bir pataloji xəstəlik haqdadır- yaltaqlıq sindromu. Bu xəstəliyin kökü əslində çox qədimlərə gedib çıxır, amma məni oraları maraqlandırmır. Sindrom son dövrlərdə daha da şiddətlənib və xroniki hala keçib.

Ölkəmizdə yaltaqlıq üzrə sanki bir çempionat başlayıb- insanlar sıraya düzülüb, kim birinci və daha çox, həm də daha "layiqli" yaltaqlıq edəcək. Bunu primitiv şəkildə edənlər daha çoxdur, amma peşəkar mütəxəssislər də az deyil. Bunun üçün xüsusi istedad, ağıllı beyin, elm, zəka, idrak, təfəkkür, daxili yaradıcılıq kimi xüsusiyyətlər tələb olunur. Bunu bacarmaq akademik olmaq kimi bir şeydir.

Yüksək müsaidənizlə, əyani bir nümunədə bunu izah edim. Bir neçə ay əvvəl qələm yoldaşlarımla rayonlardan birində bir yas məclisinə təşrif aparmışdıq. Mağarda bizi qarşılayan adam xarici görkəmimizə baxaraq nədənsə bizi vəzifəli şəxslər zənn etdi və yuxarı başa- mollanın böyür-başındakı "şərəfli" yerlərə dəvət etdi. Biz də ədəb-ərkanla oturub çayımızı içməyə və mollanın qorxulu nağıllarını, saxta hədislərini dinləməklə feyziyab olmağa başladıq.

Hal bu ikən, qəfildən mağarın qarşısında bir canlanma müşahidə olundu, hamı özünü yığışdırdı. Məclisə xüsusi bir əda ilə yekəqarın və qalstuklu bir dəstə daxil oldu. Mağarın girişinə yaxın və orta yerlərdə boş yerlər çox olmağına baxmayaraq baş tərəfə doğru irəliləməyə başladılar. Yanlarında və arxalarında isə yas sahibləri və məclisə qulluq edən adamlar quyruq bulayırdı.

Onlardan qabaqda gələn biri yüyürüb bizə yaxınlaşdı və pıçıltı ilə dedi ki, zəhmət olmasa siz bir az bu tərəfə (əli ilə mağarın giriş tərəfini göstərdi) keçin, müəllimlər burda otursunlar. Vicdan haqqı əvvəl elə bildim ki, bunlar həqiqi müəllimlərdir, o saat yerimdən qalxıb "problem yoxdur" demişdim ki, yanımdakı həmkarım ətəyimdən çəkib dedi- əşşi bir otur görək!

Bəndəniz müəllim ailəsində tərbiyə aldığından və müəllimləri dünyada ən şərəfli insanlar saydığından belə hərəkətdə bulunmuşdu. Ürəyimdə düşündüm ki, bir buna bax, adını jurnalist qoyub, xalqa qəzetdə tərbiyə verməyə çalışır, amma müəllimlərə hörmət etmir.

Mən bu fikirdə ikən, həmkarım qulluqçudan soruşdu- qardaş soruşmaq ayıb olmasın, bunlar nə müəllimləridir elə? Qulluq edən təşvişlə əyilib qulağımıza dedi- ay yerli, bunlar vəzifəli adamlardır- biri irayon maliyyə şöbəsinin rəisidir, o biri bələdiyyə sədridir, o yanındakı da icra başçısının müavinidir. Siz allah, onlara yer eləyin burda otursunlar.

Həmkarım "hörmətli" qonaqlar da eşitsin deyə boğazını arıtlayıb bir az ucadan- "qardaş bunlar balaca müəllimlərdir, biz özümüz professoruq, bax bu cavan oğlan (məni göstərir) elmlər doktorudur, yazıb-pozmaqdan beli əyri qalıb, biz irayon səviyyəsində məsələlərlə yox, qlobal səviyyədə problemlərlə məşğuluq, koroçe, biz heç yerə keçəsi deyilik, elə bura rahatdır, mollanın qızıl kimi nağıllarına qulaq asırıq burda"- demədimi??!

Bu şok açıqlamanı eşidən vəzifəli qonaqlar qapqara qaraldılar, keçib bizdən bir az aşağıda oturdular. Özlərini təhqir olunmuş hesab edirdilər, amma məyus olmağa heç bir əsas yox idi. Göründüyü kimi məclis əsli, qulluq edənlər onların böyür-başında nə tozanaq qaldırmışdılar. Biri ordan baş əyir, biri burdan salam verir, digəri ay uşaq tez ordan filan şey də gətir müəllimlərə deyə qışqırır, bir ayrısı yaxınlaşıb "müəllim ayrı bir şey lazımdırsa təşkil edək" deyə soruşur...

Nə başınızı ağrıdım, biz onlardan 15 dəqiqə tez gəlməyimizə baxmayaraq onlara bizdən tez ehsan verdilər. Üstəlik, yazmaq ayıb olmasın, onların stolunda menyuda olmayan bir-iki nemət də bulundurulmuşdu.

Bayırda isə, tozanaq davam edirdi, tez-tez gənclər məclisə girib "filan maşının sahibi kimdir" deyə soruşur, ondan maşını başqa yerə çəkməyi xahiş edirdi ki, müəllimlərin bahalı avtomobillərini mağara yaxınlaşdırsınlar ki, bu cənablar mağardan çıxanda birdən maşına qədər 12 metr piyada gedərlər, ayaqqabılarının altı toz olar...

Xülasə, bizdə iş yerində müdirə, məclisdə vəzifəli şəxsə, tədbirdə tanınmış adama, kitabda-qəzetdə-internetdə nüfuzlu insana yaltaqlanmaq adi haldır. Bunda yaltaqlıq edilən şəxslərin də böyük rolu var- onlar həmin şəxslərin "əziyyətini" necə lazımdırsa qiymətləndirirlər.

Məndən sizə amanat- həyatda və işdə uğur qazanmaq istəyirsinizsə, mütləq rəhbər şəxslərə yaltaqlanın, qonşuda, qohumda, dostların içində kimlərin pulu-vəzifəsi varsa, ona quyruq bulayın. Kasıb qohumunuz öləndə siyahıya 10 manat yazdırın, amma varlı qohumunuz öləndə 100 manat. Məclisdə varlı qohumunuzu yuxarı başa keçirin, kasıbı qapının ağzına oturdun.

Xülasə, boş-boş seriallara baxmaqdansa, bu elmi dərindən öyrənin, peşman olmazsınız. Siz mən deyənləri eləyin, əgər vəziyyətiniz əvvəlkindən xeyli yaxşı olmasa, bu mən, o da siz, gəlin abrımı bükün ətəyimə. Etiraz eləyən yaltaqdır... pardon, namərddir.



# Heydər Əliyev və Azərbaycan dili

*"Dil insanı dəyərləndirmək üçün əsas vasitədir"*

*Həzrəti Məhəmməd Peyğəmbər (s. və s)*

**Sovet kommunist rejiminin tüğyan etdiyi bir dövrdə, 1978-ci ilin aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin, Azərbaycan Sovet Sosialist Respublikasının konstitusiyasının layihəsinin və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş yeddinci sessiyasında məruzə ilə çıxış edən Azərbaycan rəhbəri Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir".**

Bu tarixi və cəsarətli təşəbbüs 1978-ci il aprelin 21-də qəbul edilmiş Azərbaycan SSR Konstitusiyasında öz əksini tapdı. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Azərbaycanın adlı-sanlı rəhbəri Heydər Əliyevin xalq arasında daha bir möhtəşəm tarixi qələbəsi idi. Xalqımızın görkəmli və əbədiyaşar oğlu həmin gün gələcək müstəqil Azərbaycanımızın milli rəmzlərindən ən mühümünün, ana dilimizin dövlət statusu almasının, qorunmasının və əsaslı inkişaf etdirilməsinin təməlini qoydu.

İndi 50 milyondan çox azərbaycanlının öz ana dilində danışması biri-biri ilə ünsiyyət bağlamasının tarixi təməlinin əslində həmin gündə qoyulmasını etiraf etməliyik. Böyük milli təəssübkeşliklə bu məsələyə yanaşan, dilimizi rəsmi dünya dillərinin sırasına qoşan



*Tahir Məmmədov,*
***Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, siyasi elmlər üzrə fəlsəfə doktoru***

ümummilli liderimiz Heydər Əliyevin o zaman qaldırdığı bu məsələ heç də keçmiş SSRİ məkanında birmənalı qarşılanmadı. Hətta başqa müttəfiq respublikaların birinci katibləri Azərbaycan rəhbərinə qarşı çıxdılar. İndi Rusiya ilə müharibədə olan Ukraynanın o zamankı rəhbəri V.Şerbitski etiraz edərək deyirmiş ki, indi gərək biz də bu addımı ataq, doğma rus dilindən uzaqlaşaq, respublikamızda öz dilimizi dövlət dili kimi rəsmiləşdirək. Azərbaycanın yenilməz rəhbəri Heydər Əliyev ona zamanında müdrikcəsinə cavab verməşdi ki, biz bu işdə heç kimə mane olmaq istəmir, öz milli maraqlarımızın yolu ilə gedirik. Obyektiv tarixçilərin yazdıqlarına görə, Heydər Əliyev o zamankı SSRİ rəhbəri L.Brejnevlə görüşmüş bu məsələni əhatəli, müdrikcəsinə ona başa salaraq problemin həllinə nail olmuşdu. Ulu Öndərimiz o zamankı 15 müttəfiq respublikalar arasında yeganə rəhbər idi ki, öz xalqının dilinin dövlət dili səviyyəsinə qaldırılmasına, inkişaf etdirilməsinə nail olmuşdu. Həmin vaxtdan ana dilimiz geniş üfüqlərə çıxmış, inkişaf, tərəqqi yollarında inamla irəliləməyə başlamışdır. Bir faktı qeyd etmək yerinə düşər ki, təkcə 1979-cu ildə Azərbaycanda çıxan 14 milyon kitabın 12 milyonu doğma ana dilimizdə nəşr olunmuşdur.

Bir az irəliyə nəzər salanda görürük ki, doğma Azərbaycan dilimiz həmin dövrə qədər çox maneələrlə üzləşmiş, həmişə də uğursuzluğa düçar olmuşdu. Belə ki, 1921-ci ildə Azərbaycan dilinin dövlət dili kimi Konstitusiya layihəsinə salınması Moskva tərəfindən dərhal rədd edilmişdi. Buna oxşar hadisə 16 ildən sonra, 1937 -ci ildə də baş vermişdi. İmperiya şovinizmi yenə də həmin təşəbbüsü yerindəcə boğmuşdu.

"Öz dilini bilməyənlər şikəst adamlardır" deyən müdrik Heydər Əliyev "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, dilimiz yaşayır və zənginləşir. Dil hər bir millətin mənliyinin əsasıdır" söyləyirdi.

Azərbaycan xalqı öz müstəqilliyinə qovuşandan sonra da ulu öndər Heydər Əliyev ana dilimizin tarixi keçmişi ilə yanaşı onun mövcud vəziyyətini, cari problemlərini də daim diqqət mərkəzində saxlayırdı. Bu yöndə bir sıra mühüm, həyati tədbirlərin görülməsinə ciddi nəzarət edirdi. Ümummilli Lider 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" tarixi Fərmanı imzaladı. Ulu Öndərimizin ilk növbədə müstəqil, müasir Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsi, formalaşması, möhkəmlənməsi yönündə müstəsna və tarixi əhəmiyyət daşıyan bu Fərmanı dövlət dili ilə bağlı hərtərəfli, geniş və mükəmməl məlumatları özündə əks etdirirdi. Ona görə də Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyası yaradılmışdı. Göründüyü kimi, xalqımızın yenilməz oğlu Heydər Əliyevin Azərbaycan dilinə böyük ehtiram və məhəbbəti göz önündədir. Prezident yanında belə bir səlahiyyətli, mötəbər komissiyanın fəaliyyəti dilimizin inkişafına, formalaşmasına xidmət edirdi. Bundan başqa, onu da xatırlamaq çox xoş olar ki, Ulu Öndərimizin başqa bir tarixi Fərmanı ilə hər il avqustun 1- i ölkəmizdə "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" kimi qeyd edilir. Bu tədbir artıq hər il əsl bayram əhval-ruhiyyəsi ilə keçirilir.

Bu gün respublikamızın uşaq bağçalarında, məktəblərində, ali təhsil müəssisələrində öz ana dilində dil-dil ötən uşaqlarımızı gənclərimizi görəndə ürəklərimiz iftixar hissi ilə döyünür. Həmin dili dövlət səviyyəsinə qaldıran, inkişafı və formalaşması üçün xalqın milli sərvətinə döndərən ulu öndərimiz Heydər Əliyevin nurli siması, fərəh və məhəbbətlə gülümsəyən mavi gözləri qürur və sevinc içində nəzərlərimizdə canlanır.

Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsi, müstəqil dövlətimizin başlıca əlamətlərindən biri kimi onun tətbiq edilməsi, qorunması və inkişaf etdirilməsi bu gün də respublikamızın Konstitusiyasına uyğun olaraq hüquqi statusunu inamla yaşadır.

Prezident İlham Əliyevin 2018-ci il 1 noyabr tarixli Fərmanı ilə ana dilimizin inkişafına böyük önəm verilməsi "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı xalqımızın varlığının, mənəviyyatının və milli-mənəvi dəyərlərinin əsas təminatçısı olan Azərbaycan dilinin gündən-günə inkişafına və qorunmasına tükənməz qayğı və fədakarlıqla xidmət edir.

# Tarixi zərurət yaradan Ümummilli Lider

**Ulu Öndər Heydər Əliyev Azərbaycanın XX və XXI əsr tarixində və ictimai-siyasi fikrində daim böyük ehtiramla xatırlanacaq dahi şəxsiyyətdir.Müasir Azərbaycan dövlətçiliyinin qurulmasını və möhkəmlənməsinicəmiyyətdə Heydər Əliyev ideyalarını yeni tarixi şərait və dəyərlər prizması ilə vəhdətdə təhlil etmək hər zaman ictimai-tarixi zərurətdir. Başqa sözlə, etiraf edilməlidir ki, Azərbaycan Respublikasının siyasi həyatında yeni güc mərkəzinin yaranması yalnız Heydər Əliyev şəxsiyyətinə ümumxalq etimadının tarixi-ictimai təzahürü nəticəsində mümkün ola bilərdi. Çağdaş siyasi tariximizin bu fundamental hadisəsi hər zaman gələcək nəsillər üçün xüsusi məktəbdir.**

Azərbaycan Respublikasına uzun illər rəhbərlik etmiş Ümummilli Lider Heydər Əliyevə ölkənin siyasi, iqtisadi, mədəni və sosial inkişafında müstəsna irəliləyişlərin birbaşa təminatçısı kimi həmişə xalq tərəfindən qəlbən dərin rəğbət bəslənilirdi. Eyni zamanda Ulu Öndər keçmiş SSRİ kimi nəhəng dövlətdə ali siyasi vəzifəyə nail olan ilk və yeganə azərbaycanlı olduğundan, sözün əsl mənasında, milli qürur mənbəyi və mənəvi fəxarət simvolu sayılırdı. İnsanlar onunla, onun tarixi şəxsiyyəti və əməlləri ilə fəxr edir, ona dərin hörmət və etimadını hər zaman ifadə edirdilər.



*Asif ƏSGƏRLİ*
*YAP İdarə Heyətinin üzvü*

Qeyd olunan tarixi reallıqla yanaşı, SSRİ-nin süqutundan sonra hakimiyyət uğrunda çəkişmələrdə kommunist ideologiyası ilə mübarizə adı altında Azərbaycanın bütün tarixi keçmişini şübhə altına almaq, reallıqları kommunist libasında təqdim etmək zəmnində ölkənin bütün formalaşmış kadr potensialına və sosial-iqtisadi bazaya qarşı təqiblər geniş tətbiq edilirdi. Belə bir vəziyyətdə cəmiyyətdə Heydər Əliyev şəxsiyyətinə, onun tarixi xidmətlərinə yeni dəyərlər əsasında yanaşılmasına və qiymətləndirilməsinə xüsusi ehtiyac hiss olunurdu.

Heydər Əliyevə qayıdış onun şəxsiyyətinə və ideyalarına inamın müstəqillik dövrünün milli məfkurəsinin vacib tərkib hissəsinə çevrilməsini nəzərdə tuturdu. Ötən əsrin 70-ci illərindən etibarən ölkəmizin ictimai-siyasi həyatının hərəkətverici qüvvəsi kimi çıxış edən Heydər Əliyev ideyaları Azərbaycan xalqının milli inkişaf kodeksinin əsasları rolunu oynayırdı. Məhz bu dərin dövlətçilik məfkurəsi əsasında Azərbaycan Respublikası həmin dövrdə sürətli yüksəlişi təmin edə bilmiş, müstəqilliyin, bir növ, siyasi-iqtisadi təməli qoyulmuşdu.

Yeni müstəqilliyini bərpa etmiş Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ münaqişəsinin başlaması, torpaqların erməni qəsbkarları tərəfindən işğalı və ölkədə vətəndaş qarşıdurmasının başlaması ilə milli dövlətçiliyin itirilməsi təhlükəsinin yaranması idi. Bu mərhələdə yenidən Azərbaycanın siyasi həyatına rəhbərlik etməyə başlayan Ulu Öndəri ilk növbədə əsrlərlə yaşayacaq və özünün adlandırdığı tarixi sərvətimiz olan milli dövlətçiliyimizi yaşatmaq, möhkəmləndirmək, ölkənin ərazi bütövlüyünü qorumaq və Azərbaycanı beynəlxalq birliyin bərabər hüquqlu bir üzvünə çevirmək kimi ciddi tarixi sınaqlar qarşılayırdı.

Böyük siyasət adamı, dünya liderlərinin nüfuzlu şəxsiyyət, dövlətçilik memarı adlandırdıqları Ümummilli Lider bu ağır mərhələləri öz peşəkar bilik, bacarıq və təcrübəsi ilə aradan qaldırdı və hər zaman qürur duyduğu, şah əsəri olan Müstəqil Azərbaycan dövlətçiliyini qorudu, yaşatdı və biz nəsillərə möhkəm bazislə ərmağan etdi.

İlk növbədə cəbhədə atəşkəsə nail olub, hər zaman arzuladığı güclü ordu yaradılmasına start verən Ümummilli Lider Ermənistan və onun havadarlarının beynəlxalq siyasi, diplomatik təzyiq maşınını darmadağın edərək, Azərbaycanı dünyanın və regionun əsas əməkdaşlıq və tərəfdaşlıq mərkəzinə çevirdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən aparılan siyasət nəticəsində Azərbaycan Qafqazın və Xəzər regionunun geosiyasətində əhəmiyyətli rol oynamağa başlayıb. Azərbaycan yalnız neft və qaz ehtiyatlarına görə deyil, həmçinin Qara və Xəzər dənizləri regionunda tutduğu mövqeyə görə ABŞ, Avropa və Asiya dövlətlərinin maraqlarının kəsişdiyi geosiyasi mərkəzə çevrilmişdir. Neft və qaz ehtiyatlarının işlənməsi, həmçinin onların dünya bazarlarına ixracı üzrə nəhəng layihələrin həyata keçirilməsi sayəsində Xəzər regionu XXI əsrdə dünyanın əhəmiyyətli regionlarından birinə çevrilib.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən aparılan müdrik siyasət sayəsində 20 sentyabr 1994-cü ildə "Xəzərin Azərbaycan sektorunda yerləşən Azəri, Çıraq və Günəşli (dərin hissəsi) yataqlarının (AÇG) işlənməsi və hasilatın pay bölgüsü" üzrə birinci saziş imzalandı. Sonralar bu saziş "Əsrin müqaviləsi" adı ilə tanındı. Bu saziş xarici şirkətlərə Azərbaycanda yeni sazişlərin imzalanması üçün geniş yol açdı. Bu sazişlərin bağlanmasının Azərbaycan Respublikasına və onun vətəndaşlarına nələr vəd edildiyi barədə Prezident İlham Əliyev belə deyib: "Son illərdə həyata keçirilən neft strategiyası bu yolun düzgün olduğunu bir daha sübut etdi. Amma bu heç də o demək deyil ki, biz gələcəyimizi də yalnız neftlə bağlamaq istəyirik. Neft faktoru bizim üçün vasitədir. Müstəqilliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın gücləndirilməsi istiqamətində bir vasitədir. Yəni biz bu vasitədən istifadə edirik.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə bağlanmış bu müqavilə Azərbaycan xalqının rifah halının yaxşılaşdırılmasında yeni dövrün əsasını qoydu".

Bu gün Ulu öndərin neft strategiyası Azərbaycanın dövlət başçısının rəhbərliyi altında uğurla davam etdirilir. Məhz bu strategiyanın müvəffəqiyyətlə həyata keçirilməsinin nəticəsidir ki, bu gün Azərbaycanda neft yataqlarının işlənməsi üzrə beynəlxalq münasibətlərin inkişaf etmiş sistemi formalaşıb. Milli neft strategiyasının uğurlarının nəticəsi olaraq Azərbaycanın regionun lider dövləti, eləcə də regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından biri kimi tanınmasına şərait yaranıb. Bu gün ölkəmizdə əldə edilən bütün iqtisadi uğurların başlanqıcında məhz milli neft strategiyası, bu strategiyanın ilk şanlı səhifəsini və təməl daşını isə məhz "Əsrin müqaviləsi" təşkil edir.

Azərbaycan vətəndaşlarının ən mühüm problemləri hər zaman Ulu Öndəri düşündürmüşdür. Bu xüsusda ən ciddi amil isə milli mənəvi dəyərlərimizin inkişafı məsələsi idi. Tarixi təcrübə sübut edir ki, dövlətin inkişafında ən aparıcı vasitə insan və mükəmməl kadr potensialıdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev sağlığında təhsil sahəsini də daimi diqqətində saxlamış, müəllimlərə böyük hörmətlə yanaşmışdır. Bu üzdən təhsil işçiləri də ümummilli lider Heydər Əliyevə öz sevgilərini daimi nümayiş edirirlər. Görkəmli ictimai-siaysi xadim Heydər Əliyev insan, vətəndaş hüquq və təhlükəsizliyinicəmiyyətdaxili münasibətlərin güzgüsü hesab edir, bu prinsipləri özünün siyasi təcrübəsində və dövlət idarəçiliyində tətbiq etməyə çalışırdı. Ümummilli Lider yeni, müasir siyasi dövlət idarəemə mədəniyyətinin bütün istiqamətlərini də çox asanlıqla müəyyən etdi. Bura

-bazar iqtisadiyyatı
-plüralizm
-demokratiya
-milli-mənəvi irsin qorunması
-enerji təhlükəsizliyi

kimi mühüm aktual sosial-siyası mexanizmlərin sistemli, funksional fəaliyyəti daxil idi. Bu siyasi idarəetmə sistemi isə həm də, yeni siyasi mədəniyyəti labüd edirdi. Azərbaycanda siyasi mədəniyyət plüralizmin geniş spektrini əhatə edərək Ulu Öndərin ideya və real fəaliyyətləri ilə formalaşmışdır. Hələ vaxtilə Ümummilli Lider Heydər Əliyevin siyasi mədəniyyət, vətəndaş cəmiyyəti quruculuğu uğrunda etdiyi çağırışlar və apardığı siyasət Azərbaycanda müasir demokratik, açıq və plüarist cəmiyyətinin formalaşmasını surətləndirdi.

Sovet totalitarizmindən çıxmış müstəqil Azərbaycan cəmiyyətinin yeni siyasi mədəniyyəti formalaşmağa başladı. SSRİ-nin dağılması prosesində ən gərgin şəraitlərlə üzləşmiş Azərbaycanda siyasi mədəniyyət məhz Ulu Öndərin sayəsində stabil şəkil aldı. Azərbaycanda siyasi mədəniyyətin, onunla bağlı olan siyasi dialoq və milli həmrəylik komponentlərinin formalaşması prosesində Ümummilli Lider Heydər Əliyevin nəzəri və praktiki siyasi fəaliyyəti olduqca böyük olmuşdur. Əsasən, Azərbaycanın yenidən müstəqillik əldə etməsindən sonra formalaşan milli dövlətçilik dəyərləri Azərbaycançılıq kontekstində özünün fərqli xüsusiyyətləri ilə seçilir.

Ümummilli Liderin ideoloji konsepsiyasına rəgmən Azərbaycanın siyasi mədəniyyəti özünün dövlətçiliyə möhkəm sədaqət, rəhbərin güclü tərəflərini tez müəyyənləşdirmək və populizmə asan məruz qalmamaq məharəti ilə seçilməyə başladı. Azərbaycançılıq, dövlətçilik ideyasının isə bu prosesdə xüsusi rolu vardır.

Ulu Öndərin vaxtilə irəli sürdüyü və aksioma kimi qəbul olunan Azərbaycançılıq məfkurəsi milli, etnik, siyasi və sosial mənsubiyyətindən asılı olmayaraq hər bir azərbaycanlının Azərbaycana və dövlətimizə olan sevgi, məhəbbət və kökdən bağlılığın gündəlik həyat normasə və fəaliyyət strategiyasıdır.

Ümummilli Lider müasir Avropanın indi indi irəli sürdüyü və dövlətlər üçün tövsiyyə olaraq formalaşdırmaq istədiyi "xalq, millət anlayışının getdikcə cəmiyət anlayışı ilə əvəzlənməsi" prinsiplərini hələ 26-27 il əvvəl irəli sürərək, vahid Azərbaycan cəmiyyəti fəlsəfəsini yaratdı.

O məfkurə ki, qısa bir müddətdə Azərbaycan cəmiyyətinin bütövlüyünü, sabitliyini, monolitliyini və davamlı inkişafını təmin etdi və bu nəzəri-praktik politoloji fikrin yaradıcısı məhz Ümummilli Liderimiz Heydər Əliyevdir.

Müasir dövrdə siyasi və sosial inkişaf yolu keçən ölkələr üçün bir etalon ola biləcək bu vahid cəmiyyət ideyasını ölkə prezidenti, Silahlı Qüvvələrin ali baş komandanı, partiyamızın sədri cənab İlham Əliyev 44 günlük Vətən müharibəsində "dəmir yumruq" prinsipini ilə tətbiq edərək, Ulu Öndərimizin vəsiyyət etdiyi Böyük Zəfərimizlə bizə yaşatdı. Budur məhz Böyük Heydər Əliyev məktəbi, tarixi Ümummilli Lider ideyaları!



## İkinci Dünya müharibəsi iştirakçılarına 1500 manat birdəfəlik yardım ödənilib

Prezident İlham Əliyevin 19 aprel 2022-ci il tarixli Sərəncamının icrası olaraq, İkinci Dünya müharibəsində Qələbənin 77-ci ildönümü ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həmin müharibədə iştirak etmiş şəxslərin - 81 nəfərin hər birinə 1500 manat məbləğində birdəfəlik maddi yardım ödəyib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən SİA-ya verilən məlumata görə, Sərəncamla Nazirlik həmçinin İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına, ümumən 4233 nəfərin hər birinə də 750 manat məbləğində birdəfəlik maddi yardımın ödənişini həyata keçirib.

Sərəncam çərçivəsində ümumilikdə 4314 nəfər Prezidentin ehtiyat fondundan ayrılmış vəsait hesabına birdəfəlik maddi yardımla təmin edilib.




## İndiyə qədər Qarabağda tapılan minaların sayı AÇIQLANIB

Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları zamanı indiyə qədər aşkarlanan minaların sayını açıqlayıb.

ANAMA-dan SİA-ya verilən məlumata görə, 2020-ci il noyabrın 10-dan 2022-ci il aprelin 30-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılan minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 11009, tank əleyhinə 5444 mina və 15020 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Nəticədə 9,568.1 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.

# Erməni vəhşiliyi dünya xalqlarını dəhşətə gətirib

Hər bir xalqın təşəkkülü tarix boyu davam etmiş arasıkəsilməz etnik prosesin nəticəsidir. Bu prosesin komponentləri qəbilələr, tayfalar və millətlər, ümumən etnoslardır. Hər hansı ərazidə hər hansı millət, etnos yaşayırsa, deməli, o ərazidəki yer-yurd adları da məhz həmin etnosun adı ilə bağlı olacaqdır. Bu baxımdan da Qərbi Azərbaycanda - indiki Ermənistan adlanan ərazidə bütün oronimlər (dağ, dərə, düzənlik adları), oykonimlər (yaşayış məntəqələri), hidronimlər (çay, göl adları), toponimlərin hamısı türk mənşəlidir. Belə ki, qədim dövrdən bu torpaqlar Azərbaycanın tərkib hissəsi olmuş və burada yaşayan əhali türksoylu olmuşdur. Azərbaycanın tərkib hissəsi olan Qarabağın Ermənistana birləşdirilməsi məqsədilə 1988-ci ildən başlanan separatçılıq hərəkatı, işğalçılıq müharibəsi, etnik təmizləmə Azərbaycana qarşı cinayətkar siyasətin növbəti mərhələsidir. Hazırda Azərbaycan ərazisinin 20% erməni işğalı altındafır.

Bir milyondan çox insan öz yurdundan didərgin salınıb, 50 mindən çox adam əlil olub, 877 şəhər, kənd qarət olunub, dağıdılıb. Xocalı soyqırımının XX ildönümü haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamında qeyd edilir ki, Azərbaycan xalqının tarixinə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı faciəsi kimi daxil olmuşdur. Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarına zidd olaraq keçmiş Sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin iştirakı ilə yatan şəhərə hücum edərək azərbaycanlılara qarşı soyqırım aktını törətmişlər. Bir neçə saat ərzində 613 soydaşımız.o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilmiş, meyitlər üzərində təhqiredici hərəkətə yol verilmişdir. Həmin kütləvi qırğın vaxtı 8 ailənin həyatına son qoyulmuş, 25 uşaq hər iki valideyinindən, 130 uşaq valideynlərinin birindən məhrum olmuş, 487 dinc Xocalı əhalisi ağır yaralanmış və 1275 nəfər girov götürülmüşdür. Girov götürülənlərdən 150 nəfərin taleyi indiyədək məlum deyil.

## Erməni vandallığının izləri tarixi abidələrdə də özünü göstərir

Əgər bizə 1918-ci ilin mart qırğını barədə danışılsaydı, çox güman ki, Xocalıda və digər bölgələrdə yeni faciələrlə üzləşməzdik. Bu tarixi yaddaşın zaman-zaman öldürülməsinin nəticəsidir. Bakı qırğınından sonra ermənilər dünyaya bəyansızcasına bildirdilər ki, Bakıda "çevriliş" olub. Uzun illər bolşeviklər və Sovet tarixçiləri bu hadisələri "Vətəndaş müharibəsi" kimi qələmə verməyə başladılar. Bu isə azərbaycanlılara qarşı vəhşi daşnak soyqırımı idi. Ermənilər və "Ermənistan" anlayışı haqda məlumata görə, Azərbaycan dilində "Ermənistan" sözü 1921-ci ildə Sovet Rusiyasının İrəvan quberniyası ərazisində yaratdığı dövlətin (və ölkənin) adıdır. Ondan əvvəl "Ermənistan" adı məlum deyil (B.Budaqov, Q.Qeybullayev. Ermənistanda türk mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, s. 19). Lakin tarixən "erməni" etnonimi ermənilərin özünü adlandırması olan "hay" etnonimi ilə üst-üstə düşmür. Haylar Ərməniyyədə - indiki Ermənistan ərazisində heç vaxt etnik çoxluq təşkil etməmişdir. Ermənilərin Ermənistan adlandırdıqları "Hayastan" adı XX əsrin 20-ci illərində yaranmışdır. Tarixdə qeyd edilir ki, ermənilərin əcdadları e.ə. XII-VII əsrlər arasında Balkan yarımadasından gələrək Kiçik Asiyanın şərqində, e.ə. XIV əsrdən məlum olan Hayasa və Arm əyalətlərində məskunlaşdılar. Urartunun hökmdarı e.ə. IX əsrdə Şərqi Anadoluda Van gölü ərazisində yaranmış bu iki əyaləti də işğal etmişdir.

XV əsrin ikinci yarısından etibarən Eçmiədzin kilsəsi həmin mülkləri müxtəlif vasitələrlə azərbaycanlılardan almağa nail oldular. 1747-ci ildə Nadir şahın ölümündən sonra, xanlıqların yarandığı dövrdə İrəvan mahalını Hüseynəli xan idarə edirdi. 1410-cu ildən 1828-ci ilədək İrəvan xanlığını idarə edən 49 türk-azərbaycanlının adı Hovanıs Şahxatunanın tərtib etdiyi siyahıda öz əksini tapmışdır (Azərbaycan tarixi. Bakı, 1994). Fransız missioneri İzriut Monye İrəvanda olanda əhalini siyahıya alarkən qeyd etmişdir ki, XVII əsrin ikinci yarısında İrəvanda yaşayan 4 min nəfər əhalinin 1000 nəfəri ermənidir.

1827-ci ildə rus qoşunları İrəvan qalasını



alanda burada əhalinin 74 faizini azərbaycanlılar təşkil edirdi. Qalan 26 faizi isə "boşa" adlanan xristian qaraçılarından, assorilərdən, yezidi kürdlərdən digər millətlərdən ibarət idi (Deportasiyaya aid materiallar, s. 50). 1829-cu il Ədirnə müqaviləsindən sonra keşiş Baqratuninin başçılığı ilə Ərzurumdan, Qarsdan 90 min erməni İrəvana Qafqazın başqa ərazilərinə gətirildi. 1828-ci ilin yazında isə Qriboyedovun rəhbərliyi ilə 50 min erməni Təbrizdən, Xoydan və b. ərazilərdən köçürülüb Qarabağda, Göycə mahalında yerləşdirdi. Buna qarşı səsini ucaldan azərbaycanlılar cəzalandırıldılar. 1826-1828-ci illərdə İrəvan xanlığı ərazisində 420-yə qədər azərbaycanlı kəndi dağıldı, bir çox kəndlərin adı xəritədən silindi. 1905-1920-ci illərdə indiki Ermənistan ərazisində 1000-ə yaxın azərbaycanlı kəndi viran edilmiş, əhalisi soyqırıma məruz qalmışdır. 1918-ci ilin martına qədər İrəvan quberniyasında 198 kənd, 1919-cu ilin son iki ayı ərzində Üçkilsə (Eçmiədzin) və Sürməli qəzalarında 34 kənd, İrəvan qəzasında Zəngibasardan başqa bütün azərbaycanlı kəndləri talan olunmuş, dağılmış və yandırılmışdır.

Ermənilər 1918-1920-ci illərdə ADR-in tərkibində olan Zəngəzur, Göycə, Dərələyəz, Qaraqoyunlu mahallarını, eləcə də bir sıra başqa əraziləri zorla öz torpaqlarına qatmaqla 29,8 min. kv. km-lik qondarma "Ermənistan dövləti"nə nail oldular. 1920-ci ildə bu torpaqlara yiyələnən ermənilər 1921-ci ildə Dağlıq Qarabağı da Ermənistana birləşdirmək istədilər. Onların belə fəallığına Nəriman Nərimanov mane oldu. Təkcə 1935-ci ildən 1988-ci ilin avqustuna qədər Ermənistan Ali Sovetinin müxtəlif fərmanları ilə bu ərazidə olan 994 yaşayış məntəqəsinin adı dəyişdirilmişdir. Ali Sovetin fərmanı əsasında addəyişmə əməliyyatı 1935, 1938-39, 1940, 1946, 1950, 1957, 1962, 1967, 1969, 1977-78, 1980-cı illərdə düşünülmüş şəkildə həyata keçirilmişdir.

Beləliklə, son 200 ildə indiki Ermənistan ərazisindən 2 mindən artıq Azərbaycan coğrafi adlarını müxtəlif yollarla - rəsmi köçürmə, silah gücü ilə yerlərindən çıxarmaqla, soyqırım törətməklə, kəndləri yandırıb əhalini məhv etməklə siyahıdan - xəritədən silməyə nail oldular. Azərbaycan SSR XKS-in 20 yanvar 1940-cı il tarixli 57 saylı qərarına əsasən, təkcə 1940-cı ilin üç ayı ərzində Azərbaycana yalnız RSFSR-dən 3370 nəfər "fəhlə qüvvəsi" adı altında köçürülərək Bakıda iş və mənzillə təmin olunmuşdur. SSRİ XKS nəzdində iqtisadiyyat şürasının sədri A. Mikoyanın xüsusi canfəşanlığı və tapşırığı ilə 3370 nəfərdən 3220-si respublika əhəmiyyətli təsərrüfat idarələrində "əsasən rəhbər vəzifələrə təyin edilmişdir".

A.Mikoyanın razılığı əsasında Bakıda yaradılmış köçürülmə şöbəsinə başçılıq edən N.Mirzoyan fürsəti əldən verməyərək "əzabkeş", "başı min bir bəlalar çəkmiş" ermənilərin də Bakıda mənzil və işlə təmin edilməsinə əlverişli şərait yaratmışdır. Fəaliyyət göstərən şöbə 1940-cı ilin ikinci rübündə DQMV-dən 1440 erməninin Bakıya köçürülməsinə şərait yaratdı. Həmin illərdə Azərbaycanın şəhər, qəsəbə, rayon və kəndlərindən Bakıda qeydiyyata düşmək dövlət səviyyəsində qadağan olunmuşdu. A. Mikoyanın göndərdiyi məktuba əsasən 1941-ci ildə 211 nəfər Stalinqraddan, Rostovdan Rusiyanın digər bölgələrindən Azərbaycana köçürülmüşdür. 1941-ci ilin sonlarında SSRİ XKS nəzdində köçürmə idarəsinin rəisinə göndərilən məktubda Rusiyanın ayrı-ayrı bölgələrindən 354 ailə Əli Bayramlı, Xaçmaz rayonlarında yerləşdirilmişdir. 1942-ci ildə Dağıstandan 900 ailə Azərbaycana köçürülmüşdür. Köçürülənlər əsasən ruslar, ermənilər və dağıstandan gələnlər idi. Xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi fürsətini əldən verməyən ermənilər ilk dəfə 1943-cü ildə üç böyük dövlətin (SSRİ, ABŞ, İngiltərə) iştirak etdiyi Tehran konfransı zamanı (28 noyabr- 1 dekabr) əldə etdilər.

Konfrans ərəfəsində hiyləgər erməni diasporunun rəhbərləri ölkənin xarici ilşlər naziri V.M.Molotovla əlaqə yaratmış, xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi üçün Sovet dövləti başçısının razılıq verməsini xahiş etmişlər. Molotov elə oradan Stalinlə telefon danışığından sonra onun razılığını almışdır. Məkrli ermənilərə elə bu lazım idi. 1945-ci ilin aprelində dünya ermənilərinin patriarx-katalikosunun müavini Georq (Çeorskiyan) ərizə ilə Stalinə müraciət edərək dünya ermənilərinin dini mərkəzi olan Eçmiədzin monastrının fəaliyyətinə icazə verməsi üçün razılıq istəyir. Aprelin 19-da Stalin öz xətti ilə "razıyam" yazandan sonra SSRİ XKS 1945-ci ilə noyabrın 21-də xüsusi qərarında xaricdən ermənilərin gəlməsinə razılığını bildirmişdir. 1946-cı ilin yanvarında 130 min erməni Ermənistana köçmək üçün Moskvaya müraciət edir.

## Terrorçu ermənilərin Qafqaza köçürülməsi böyük güclərin dövlət siyasətinə çevrilmişdi

1946-cı ildə Suriya, Yunanıstan, Livan, İran, Bolqarıstan və Rumıniyadan 50,9 min nəfər,1947-ci ildə Fələstin, Fransa, ABŞ, Yunanıstan, Misir və Livadan 35,4 min erməni Ermənistan torpaqlarında yerləşdirilir (Vəliyev. I, Muxtarov. K, Hüseynov. F. Deportasiya. Azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası. Bakı, 1998). Bununla kifayətlənməyən ermənilər və Ermənistan KP MK- nın birinci katibi Q. Arutyunov yaranmış vəziyyəti əldən verməyərək 100 min azərbaycanlı əhalinin azərbaycana köçürülməsinə Stalinin razılıq verməsini xahiş edir. A. Mikoyanın canfəşanlığının nəticəsində erməni lobbisi azəri-türklərin yaşadıqları dədə-baba yurdlarından Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi üçün zəmin hazırlanmasına nail oldu. 1945-ci il oktyabr 20-də SSRİ XKS 2264 saylı qərar qəbul etmişdir. Bu azmış kimi Q. Arutyunov 1945-ci ilin 28 noyabrında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi təklifini ÜİK /b/ PMK-nın sərəncamına verdi. Stalin həmin məktubu Malenkova, o isə öz növbəsində cavab üçün onu Azərbaycan rəhbərliyinə göndərdi ki, Ermənistan K/b/ PMK-nın təklifinə öz münasibətini bildirsin.

Azərbaycan hökuməti 1945-ci il dekabrın 10-da 330 saylı sənədlə göndərilən cavabında erməni hökumətinin irəli sürdüyü bütün iddialarının əsassız olduğunu göstərdi. M.Bağırov qeyd etmişdi ki, Dağlıq Qarabağın ərazisi Qarabağ xanlığının ərazisində olmuşdur və xanlığın mərkəzi də Pənahabad /Şuşa/ idi. Bu qala Qarabağ xanı Pənah xan tərəfindən tikilmişdir. 1826-cı ildə bu xanlıq çar Rusiyasına birləşdirildikdən sonra indiki DQMV-nin ərazisi Yelizovetpol quberniyasının Şuşa, Cavanşir, Qaryağın (indiki Füzuli) və Qubadlı qəzalarının tərkibində idi. 1918-1920-ci illərdə bütün Qarabağ ərazisində mərkəz Şuşa olmaqla Qarabağ general-qubernatorluğu təşkil edildi. Daşnak bandaları Şuşa və digər şəhərləri dağıdıb oda qərq etdilər. 1923-cü ildə Qarabağın dağlıq hissəsinin - ermənilərin çox olduğu yerin Ermənistana birləşdirilməsi məsələsi ortaya atıldı. Bu ərazinin Ermənistanla ümumi əlaqəsi olmadığına və bura Qubadlı, Laçın, Kəlbəcər, Dəstəfur rayonları ilə ayrı olduğuna, burada əhali azərbaycanlılardan ibarət olduğuna görə Azərbaycan MİK-nın 1923-cü il 7 iyul tarixli dekreti ilə mərkəz Xankəndi olmaqla DQMV yaradıldı. Dağlıq Qarabağ ərazisi cəhətdən Ermənistanla heç vaxt yaxın olmayıb. M. Bağırov ÜİK/b/ PMK-nın nəzərinə bunları çatdırdı ki, Dağlıq Qarabağın Ermənistana daxil edilməsi məsələsinə baxarkən, eləcə də əhalinin əksəriyyəti azərbaycanlılardan ibarət olan və bizim sərhədlərə yaxın olan Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının tərkibinə qatılması məsələsinə də baxılsın. ÜİK/b/ PMK-dan xahiş olunurdu ki, bu məsələlərə də baxılsın. Gürcüstan hökuməti də Azərbaycanın Balakən, Zaqatala və Qax rayonlarının onlara verilməsi məsələsini qaldırır. Bu bölgədə 79 min əhalidən 9 mini gürcü-inqiloylardır. Biz bunun baxılmasına da etiraz etmirik. O halda ki, Gürcüstanın tərkibində olan Borçalı rayonunun Azərbaycana birləşdirilməsinə baxılsın. Keçmişdə Azərbaycanın tərkib hissəsi olmuş Bakı quberniyasına daxil olan Dərbənd və Qasımkənd ərazilərini Azərbaycanın tərkibinə daxil edilməsi məsələsinə də baxasınız. Onlar maldarlıqla məşğul olur və ilin 9 ayını bizim ərazidə olurlar. M. Bağırovun bu əsaslı cavabı çoxlarını susdurdu. İrəli sürülən bu şərtlər, Ermənistan bir yana, heç mərkəzi də təmin edə bilmirdi.

Artıq ermənilər yaşayış məntəqələrini siyahısını əvvəlcədən hazırlamışdılar. Azərbaycanlıları əsasən İrəvan şəhəri və ona yaxın olan rayonlar - Əştərək, Zəngibaşar, Eçmiədzin, Oktenberyan, Qəmərli (yeni adı Artaşat), Qarabağlar, Vedi, Axta (Razdan), Əzizbəyov və s. rayonlara daxil etmişdilər.

Mikoyan-Stalin-Arutyunov-Bağırov sövdələşməsi SSRİ NS-in "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli 4083 saylı qərarı ilə nəticələnir. Bu, xalqımıza qarşı ən ağır zərbə, əsil represiya idi. Ermənistandan 100 min əhalinin köçürülməsi ilə bağlı tədbirlər planı - ən mühüm məsələ yalnız 2 ay 18 gündən sonra - 10 mart 1948-ci il tarixdə SSRİ NS-in "Ermənistan SSR ərazisində kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 saylı qərarında öz əksini tapmaqla şərh edilmişdir. Bu qərara əsasən, 1948-1953-cü illərdə "könüllülük" adı altında azərbaycanlıların indi Ermənistan adlanan qədim oğuz yurdlarından köçürülməsinə başlanıldı. Erməni millətçiləri üçün kolxozçuların iriləşdirilməsi, perepektivsiz kəndlərin ləğv olunması kompaniyasının başlanması nəzərdə tutlan işi həyata keçirmək rolu oynadı.

Qərarda göstərilirdi ki, 100 min kolxozçu əhali Kür-Araz ovalığına köçürülsün. Onlardan 10 min nəfəri 1948-ci ildə, 40 mini 1949-cu ildə, 50 min nəfəri isə 1950-ci ildə köçürülmüşdür. Azərbaycan hökumətinin 1948-ci il 13 may tarixli qərarına görə, Ermənistandan, Yerevan şəhərinin Stalin və Spandaryan rayonlarından, həmçinin Basarkeçər, Vedi, Artaşat, Noemberyan, Oktemberyan, Zəngibasar və digər bölgələrindən 2757 təsərrüfatın (12177 nəfərin) Azərbaycan Respublikasına köçürülməsi planlaşdırılmışdı. əhalinin 6215 nəfərini Kür-Araz ovalığında, 5962 nəfərini isə Azərbaycanın digər bölgələrində yerləşdirməyə nəzərə alınmışdır. Köçürülənlər Bakı şəhərinin Əzizbəyov, Voroşilov rayonlarında, eləcə də Gədəbəy, Xanlar, Quba, Bərdə, Ağstafa, Ucar, Ağcabədi, Salyan rayonlarının kəndlərində yerləşdirilməli idilər.

**İ.ƏLİYEV**

# Rusiya kinoprodüseri:
## Azərbaycanda çəkilə biləcək kino layihələrimiz var

**Teymur Cəfərov: “Müəyyən maliyyə və inzibati məsələlər var ki, mən Rusiyada olduğum üçün orada həll edə bilmirəm. Qarşılıqlı əlaqə saxlayacaq və kömək edəcək tərəfdaşlara ehtiyacımız var”**



Əslən bakılı olan tanınmış rusiyalı ssenarist və kinoprodüser Teymur Cəfərov 17 ildən artıqdır ki, həm Rusiyada, həm də xaricdə kino layihələri çəkir. Onun müxtəlif formatlı və janrlı 40-dan çox film və televiziya əsəri var. Onun layihələri arasında seçilən ”Qırmızı bağ”, ”Sağ qalanlar”, ”Atəş xətti”, ”Voroninlər”, ”Bakıda isti”, ”Yaxşı arvad” və digər kino əsərləri ilə yaqin ki çoxlarınız tanışsınız. Bu yaxınlarda prodüser yeni ”Klinik 13” serialının çəkilişlərinə başlayıb. Filmin aktyor heyətini tam şəkildə ulduz adlandırmaq olar. Teymur Cəfərov ”Moskva-Bakı” portalına müsahibəsində yeni serialın nədən bəhs etdiyini açıqlayıb. Bundan əlavə, prodüser kino ulduzlarından hər hansı birini çəkməyə razı salmaq lazım olub-olmadığını, niyə filmin büdcəsini səsləndirə bilməyəcəyini, Bakıda hansı layihələrin artıq yazıldığını və çəkilişlər üçün uyğun vaxtı gözlədiyini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Teymur, ötən gün yeni "Klinik 13" serialının çəkilişlərinə başladınız. Serialınız həkimlərlə bağlı digər seriallardan nə ilə fərqlənəcək?***

- Serialımızın süjetinə görə, ölümcül xəstə olan bir cərrah qeyri-adi diaqnozlarla xəstələri qəbul edən klinikada işə düzəlir. Ssenari ”Trigger” layihəsindəki işi ilə tamaşaçıya məlum olan Andrey Zolotarev tərəfindən yazılmışdır. O, serialı elmi fantastika adlandırdı, bunun üçün biz fikirləşdik və ayrıca tibb bölməsi yazdıq. Mənim üçün bu, öz demonları ilə mübarizə aparan bir həkim haqqında serialdır. Və bu iblislər vasitəsilə o, özünü öyrənir, düşdüyü vəziyyətin öhdəsindən gəlir. Yalnız ətrafdakı reallıqla deyil, onunla baş verənlərin daxilində. Serialımızın həkimlərlə bağlı digər seriallardan fərqi budur.

***- Yəni serialın süjetində mistisizm olacaq?***

- Bəli, mistisizm serialın içində olacaq, onun tərkib hissəsidir. Deyə bilərik ki, çəkilişləri yalnız Rusiyada aparılacaq serialımızın özünəməxsus cəhətlərindən bəziləri budur.

***- Serialın heyəti çox güclüdür...***

- Aktyor heyəti sadəcə güclü deyil, heyrətamizdir. Danya Kozlovskini, Paulina Andreevanı, Vika İsakovanı, Vladimir Steklovun özünü və başqa sənətkarları, bəlkə də daha az tanınmış, lakin heç də az istedadlı olmayanları bir komandada toplaya bildik. İndi artıq serialın çəkilişlərinə başlamışıq və onu İVİ platformasında izləmək mümkün olacaq.

***- Aktyorlardan hansının serialın tərkibinə düşməsi ən çətin olub? Bəlkə Danila Kozlovski?***

- Yox, elə məqam olmayıb ki, kimin üçünsə çətin olsun, kiminsə aktyor heyətinə düşməsi daha asan olsun.

***- Serialın büdcəsini deyə bilərsinizmi?***

- Mən bunu deyə bilmərəm, hazırda belə bir hüququm yoxdur.

***- İndi həm də Strugatski qardaşlarının "Allah olmaq çətindir" povestinin filmə uyğunlaşdırılması üzərində işləyirsiniz. Artıq müxtəlif vaxtlarda çəkilmiş bu hekayənin iki uyğunlaşması var. Uyğunlaşmalardan hansını bəyənirsiniz və uyğunlaşma variantınızda nələr olacaq?***

- Bəli, ”Tanrı olmaq çətindir” povestinin filmə uyğunlaşdırılması üzərində işləyirik. Mövcud iki uyğunlaşmadan heç birini bəyənmirəm, ona görə də özümünkünü etmək istəyirəm. İndi ssenari yazılır və mən bunu etmək istədiyimə mümkün qədər yaxınlaşdıracağam. Ümid edirik ki, biz bunu edə bilərik. Bütün komandaya böyük-böyük uğurlar arzulamaq istəyirəm.



***- Kino layihələriniz arasında Bakıda lentə alınan "Bakıda istilik" tammetrajlı filmi də var. Azərbaycanda başqa bir layihənin çəkilişi nəzərdə tutulurmu?***

- Azərbaycanda çoxlu layihə planlarımız var. Çox şeyi həll etmək olar, lakin bu, Azərbaycanda bu layihələrin həyata keçirilməsində köməklik göstərə biləcək strukturların məsələsidir. Mən işə, tərəfdaşlığa, Azərbaycanda artıq yazılmış və çəkilə bilən heyrətamiz layihələrə açığam. Məsələn, Voroninlərin Bakıdakı sərgüzəştlərindən başlayaraq Azərbaycanda yaşayan qaçqınlarla bağlı festival layihələri ilə bitən çəkilişədək. Amma müəyyən maliyyə və inzibati məsələlər var ki, mən Rusiyada olduğum üçün orada həll edə bilmirəm. Qarşılıqlı əlaqə saxlayacaq və kömək edəcək tərəfdaşlara ehtiyacımız var. Mən özüm ildə ən azı 2 dəfə, maksimum isə ildə 10 dəfə Bakıya gəlirəm. Bu, məşğulluqdan, işdən və bir çox digər amillərdən asılıdır. Ən çətin dövrlərdə Bakıya gəldim, sevindim. Mən də həyatımın sevincli dövrlərində gəlirəm. Məsələn, bu yaxınlarda ad günüm gəlir və onu Bakıda qeyd etməyi planlaşdırıram. Bu, mənim sevimli şəhərimi nə qədər sevdiyimi və ondan ilham aldığımı göstərir!










**Müsahibə aldı - Tatyana Novikova**
**Tərcümə etdi - Elçin Bayramlı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması” istiqaməti çərçivəsində hazırlanıb.*

SƏS
5 may
2022-ci il

# Ronaldo: "Hələ işim bitməyib"



"Mançester Yunayted"in futbolçusu Kriştiano Ronaldo klubdan ayrılmaq fikrində deyil. Qol.az xəbər verir ki, portuqaliyalı hücumçu İngiltərə Premyer Liqasının 35-ci turunda "Brentford"a qalib gəldikləri matçdan (3:0) sonra televiziya kameralarına bunları deyib: "Hələ işim bitməyib". Bununla da, o, klubda qalmaq istədiyinin mesajını verib.

Qeyd edək ki, Ronaldo sözügedən görüşdə penaltidən fərqlənib. Bu, onun Premyer Liqadaa 2021/2022 mövsümündə 18-ci qolu olub. Xatırladaq ki, 37 yaşlı oyunçunun bu mövsümün sonu "Mançester Yunayted"dən ayrıla biləcəyi barədə xəbərlər yayılıb.

# "Taliban" əfqan qadınlara maşın sürməyi qadağan edir



**Əfqanıstanda hakimiyyətə gəldiyi gündən qadın hüquqlarını məhdudlaşdırdığına görə beynəlxalq ictimaiyyət tərəfindən tənqid edilən Taliban bu dəfə qadınlara sürücülük vəsiqəsi almağı qadağan edib. SİA-nın xarici mətbuata istinadən verdiyi xəbərə görə, Əfqanıstanın ən liberal şəhəri olan Heratda Taliban liderlərinin sürücülük məktəbləri və təlimatçılarına "qadınlara sürücülük vəsiqəsi verməməsi" tapşırdıqları bildirilib.**

Sürücülük vəsiqəsi kurslarını idarə edən Herat Yol İdarəetmə İnstitutunun rəhbəri Jan Ağa Açakzai bildirib ki, qadınlara vəsiqə verməyi dayandırmaq üçün şifahi göstəriş aldıq. Lakin indiyədək qadınların şəhərdə avtomobil idarə etməsinə mane olmaq üçün göstəriş verilməyib.

*Abutel İlhamqızı*

# Bakıda tələbənin intihar etməsinin səbəbi açıqlandı



**Daxili İşlər Nazirliyi (DİN) Bakıda tələbənin intiharının səbəbini açıqlayıb. DİN-in Mətbuat Xidmətindən SİA-ya bildirilib ki, mayın 3-ü saat 12:00 radələrində Bakı şəhər sakini, 17 yaşlı Xumar Babayeva Xətai rayonu ərazisindəki hündürmərtəbəli yaşayış binasının 9-cu mərtəbəsinin ümumi istifadə olunan eyvanından özünü atıb.**

O, eyvanın altında dayanan, bu zaman onu tutmağa cəhd edən bina sakini 38 yaşlı Zahid Niyazovun üzərinə düşüb. Nəticədə X.Babayeva hadisə yerində ölüb, Z.Niyazov isə xəstəxanaya yerləşdirilib, vəziyyəti orta-ağırdır. İlkin araşdırmalarla X.Babayevanın intihar etməsinə səbəb imtahanda zəif nəticə göstərməsi olduğu müəyyən edilib.

# XƏBƏRDARLIQ: İqlim dəyişikliyi yeni xəstəliklər gətirəcək!



Corctaun Universitetinin alimlərinin hesabatına görə, qlobal istiləşmə gələcəkdə yeni pandemiyaların inkişafına təkan verə bilər. Planetin iqlimi istiləşdikcə, tədqiqatçılar heyvanların yeni yaşayış yerləri axtarmağa məcbur olacağını və yeni virusların insanlara keçmə riskini artıracağını bildirirlər. SİA bu barədə rus saytlarına istinad edir.

Corctaun Universitetinin alimlərinin hesabatına görə, qlobal istiləşmə gələcəkdə yeni pandemiyaların inkişafına təkan verə bilər, çünki iqlim dəyişikliyi virusların heyvanlardan insanlara keçmə riskini artırır. Bu barədə Amerikanın "Forbes" jurnalı "Nature" elmi jurnalında dərc olunmuş araşdırmanın məlumatlarına istinadən xəbər verir. Tədqiqatçıların fikrincə, planetdə iqlim istiləşdikcə bir çox heyvanlar yeni yaşayış yerləri axtarmağa, kiçik şəhərlərə və böyük şəhərlərə yaxınlaşmağa məcbur olacaqlar. Beləliklə, onlar insan mühitində əvvəllər tapılmayan yeni patogenləri və parazitləri insanlara ötürə bilirlər. Alimlərin fikrincə, 2070-ci ilə qədər 3100-dən çox müxtəlif növ məməlilər adi coğrafi ərazilərini dəyişəcək.

Alimlər hesab edirlər ki, 2°C-dən az istiləşmə ilə bağlı ən optimist iqlim proqnozları olsa belə, 2070-ci ilə qədər iqlim dəyişikliyi ən azı 15.000 yeni heyvan virusunun insanlara ötürülməsinə səbəb olacaq. Tədqiqatçıların fikrincə, insanlar üçün ən təhlükəli miqrasiya yarasalardır, onlar uzun məsafələr qət edə bilirlər və ehtimal ki, insanlara yoluxa bilən patogenlərin daşıyıcısıdırlar.

Bundan əvvəl BMT strukturlarından biri olan Ümumdünya Meteorologiya Təşkilatının (WMO) baş katibi Petteri Taalas məlumat verməşdi ki, hazırda Yer kürəsində temperaturun artması son 200 min ildə ən güclü artımdır. Onun fikrincə, bu, kömürün, neftin və qazın intensiv yanması nəticəsində baş verir və müxtəlif regionlarda rütubətin daha da artması və ya buzlaqların aktiv əriməsi ilə təhlükə yaradır.

*Əli Babayev*

## ELAN

YAP Ağstafa rayon təşkilatı tərəfindən partiya üzvlərinə təqdim edilmiş 02.06.2008-ci il tarixli № 457063 nömrəli və 01.12.2001-ci il tarixli № 211377 nömrəli partiya üzvlük vəsiqələri itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor:**
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3220